# DİN-dən xüsusi əməliyyat

İrana xidmət edən 20 nəfər tutuldu



**Daxili İşlər Nazirliyi əməkdaşları Azərbaycanda din pərdəsi altında fəaliyyət göstərən daha bir cinayətkar qrupla bağlı əməliyyat keçirib.**

"Şərq" xəbər verir ki, əməliyyat zamanı 20-ə yaxın şəxsin saxlanıldığı bildirilir.

Məlumata görə, həmin şəxslər dini xurafatçılıqla və İran lehinə dini təbliğat aparmaqla narkotik vasitələrin kütləvi satışını da təşkil edirmişlər. Din pərdəsi altında cinayətkar fəaliyyət göstərmiş şəbəkənin əsas məqsədi Azərbaycanın dünyəvi dəyərlərinə zərbə vurmaq, "kərimə" gənclərini narkotik vasitələrə qurşandırmaqla idarə etmək olub.



# İsmayıllıda zəlzələ olub

**Azərbaycanda İsmayıllı rayonunda zəlzələ qeydə alınıb.**

Bu barədə AMEA-nın nəzdində Respublika Seysmoloji Mərkəzindən bildirilib.

*Zəlzələ yerli vaxtla saat 15:21-də qeydə alınıb. Onun maqnitudası 3,5 bal, dərinliyi 12 km olub.*


№ 67 (5828) 2023-cü il

Qiyməti 40 qəpik

ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 19 aprel 2023-cü il (çərşənbə)




# ABŞ Türkiyə ilə bağlı F-16 qərarı verdi

**ABŞ Dövlət Departamenti F-16 döyüş təyyarələrinin rabitə sistemi olan "Link-16" taktiki məlumat bağlantısı şəbəkəsinin modernizasiya dəstlərinin Türkiyəyə satışını təsdiqləyib.**

"TRT Haber" xəbər verir ki, məsələ ilə bağlı Konqres məlumatlandırılıb.

Taktiki məlumat bağlantısı kimi də tanınan "Link-16" hərbi radio şəbəkəsi NATO və müttəfiq ölkələr tərəfindən istifadə olunur. Bu şəbəkə təyyarələr, helikopterlər, dronlar, gəmilər və quru qoşunları arasında taktiki məlumat mübadiləsini təmin edir.

ABŞ Konqresinin NATO üzvlərinə verilən satış icazələri üçün 15 iş günü, NATO üzvü olmayan ölkələr üçün isə 30 iş günü ərzində Departamentin qərarından şikayət etmək hüququ var.



# MM komitə sədri: "Azərbaycanda su qıtlığı gözlənilmir"

**"Azərbaycanda su qıtlığı gözlənilmir".**

APA xəbər ki, bunu jurnalistlərə açıqlamasında Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov deyib.

"Cənab Prezidentin həyata keçirdiyi layihələr, çaylar üzərində qurulan bəndlər və digər bu kimi tədbirlər əhalimizi susuz qoymayacaq", - o əlavə edib.

Sadiq Qurbanov texniki su ilə içməli su arasında fərq qoyulmasının vacibliyini diqqətə çatdırıb. "Bu sular arasında həmçinin qiymət fərqi də olmalıdır. Təsəvvür edin dövlət layihələri əsasında su gəlib Bakıya çatır. Biz isə həmin su ilə ağac sulayır, maşın yuyuruq".

Deputat Bakı şəhərində yaşıllıqların azaldılıb-azaldılmaması məsələsinə də toxunub:

"İmkan verilən ərazilərdə yaşıllıqların sayı artırılmaqdır. Doğrudur, bəzən ağacların qırılması hali ilə də rastlaşırıq. Amma bununla bağlı qanunvericilikdə müəyyən maddələr var".

# Qazaxıstan Azərbaycana yeni səfir təyin edib



**Qazaxıstan Respublikasının Azərbaycan Respublikasındakı yeni fövqəladə və səlahiyyətli səfiri təyin edilib.**

APA Qazaxıstan Prezident Administrasiyasının (Ak Orda) mətbuat xidmətinə istinadən xəbər verir ki, bu barədə Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev sərəncam imzalayıb.

Qazaxıstan Prezidentinin sərəncamına əsasən, bu vəzifəyə Alim Bayel təyin edilib.

# "Başqa variant yoxdur"

## Prezident İlham Əliyev: "Ermənistan prinsip etibarı ilə bizim yanaşma ilə razıdır"



"Qarabağda yaşayan ermənilər ya Azərbaycan vətəndaşlığını qəbul etməlidirlər, ya da özləri üçün başqa yaşayış yeri tapmalıdırlar"

**"Qarabağ və Şərqi Zəngəzurda görülmüş işlər bir daha göstərir ki, biz - bu torpaqların sahibləri dədə-baba torpaqlarımıza qayıtmışıq".**

Bunu Prezident İlham Əliyev aprelin 18-də Salyan rayonunda Azərbaycan Televiziyasına müsahibəsində deyib. Dövlət başçısı qeyd edib ki, hazırda Qarabağın və Şərqi Zəngəzurun bərpa edilməsi məsələsi bizim üçün əsas prioritetdir və mənim bölgələrə səfərlərimin əksəriyyəti məhz o bölgələrə olan səfərlərdir: "Qarabağda və Şərqi Zəngəzurda genişmiqyaslı bərpa-yenidənqurma işlərinin plan üzrə getdiyini vurğulayan dövlət başçısı bildirib: "Qarabağ və Şərqi Zəngəzurda görülmüş işlər bir daha onu göstərir ki, biz - bu torpaqların sahibləri öz doğma dədə-baba torpaqlarımıza qayıtmışıq".

(səh.2)

# İcazə verildi

## Quru sərhədi təkcə tələbələr üçün yox, vətəndaşlara da açılmalıdır



**Türkiyədə təhsil alan azərbaycanlı tələbələrin Vətənə quru sərhədlə keçməsinə icazə verilib. Bu barədə Azərbaycanın Türkiyədəki Səfirliyinin orada təhsil alan Azərbaycan vətəndaşlarına müraciətində bildirilib.**

"Türkiyədə ikinci semestrdə təhsilin distant qaydada həyata keçirilməsi ilə bağlı qəbul edilmiş qərar səbəbindən hazırda həmin ölkədə subbakalavr, bakalavr, magistratura, doktorantura və rezidentura təhsili alan Azərbaycan vətəndaşları və onların birinci dərəcəli ailə üzvlərinin (ata/ana, ər/arvad, övladlar) tələbə biletini təqdim etməklə zəruri icazə olmadan mayın 10-dək quru sərhədlər vasitəsilə Azərbaycana daxil olmalarına icazə verilib",- müraciətdə qeyd olunub.

(səh.4)



# Volodimir Zelenski ön cəbhədə hərbçiləri ziyarət edib

**Ukrayna Prezidenti Volodimir Zelenski Donetsk vilayətinin Avdeyevka rayonunda hərbçiləri ziyarət edib.**

"Report" xəbər verir ki, məlumatı UNIAN yayıb.

O, ön cəbhədə Ukrayna müdafiəçilərini Pasxa bayramı münasibəti ilə təbrik edərək deyib: "Sizə hər bir ukraynalıya arzu etdiyim kimi yalnız qələbə arzulayıram. Bu bizim hamımız üçün çox vacibdir. Hamınıza və hər birinizin ailəsinə cansağlığı arzulayıram. Hər gün keçdiyiniz uzun yola görə hər bir ukraynalı adından sizə ürəkdən təşəkkür edirəm".

# Gizli saxlayırlar

İran azərbaycanlı tələbəni məqsədli şəkildə girov götürüb



**Azərbaycan Xarici İşlər Nazirliyi İranda itkin düşən azərbaycanlı Fərid Səfərli barədə növbəti açıqlama yayıb. Xarici İşlər Nazirliyinin Mətbuat Xidməti idarəsinin rəisi Ayxan Hacızadə deyib ki, İranda itkin düşən azərbaycanlı tələbədən hələ də məlumat yoxdur: "Hazırda bu məsələ araşdırılır".**

Bununla bağlı dəfələrlə İranın Azərbaycandakı səfirliyinə nota verilib. Qeyd edək ki, Almaniyanın Yena Universitetinin tələbəsi, 1997-ci il doğumlu Fərid Qabil oğlu Səfərli bu il fevralın 20-də İrana səfər edib. Martın 4-dən bəri isə ondan xəbər yoxdur. Məlumata aydınlıq gətirilməsi məqsədilə Xarici İşlər Nazirliyi müvafiq olaraq İranın Azərbaycandakı səfirliyinə nota verib, dəfələrlə Tehrana çağırış edilib.

# Tərtərdə 43 yaşlı kişi minaya düşərək xəsarət alıb



**Tərtər rayonu Borsunlu kəndində 1980-ci il təvəllüdlü Elnur Əsgərov minaya düşüb.**

DİN-in Mətbuat xidmətindən "Şərq"ə bildirilib ki, kənd sakini E.Əsgərov xəstəxanaya yerləşdirilib:

"Həyati təhlükəsi yoxdur. Araşdırma aparılır".



# "İranın əlində çox kart qalmayıb"

Əhməd Obalı: "Yəqin ki, terror qruplarından və yaratdığı "beşinci kolon"dan istifadə edəcək"

(səh.3)



# Paşinyan sülh istəyirsə, bunu əməli işlə göstərməlidir

Əgər Azərbaycanın ərazi bütövlüyünü qeyd-şərtsiz tanıyırsa, Qarabağdakı proseslərə əsla müdaxilə etməməlidir

(səh.3)




**“Heç kimə imkan vermərik ki, bizim ərazimizdə kimsə at oynatsın”**

Prezident bildirib ki, İkinci Qarabağ müharibəsindən keçən iki il yarım ərzində Ermənistan, onun havadarları və eyni zamanda ona dəstək verən ölkələr və qüvvələr bizim iradəmizi, qətiyyətimizi, gücümüzü əyani şəkildə görüblər: ”Bu iki il yarım ərzində həm Azərbaycan-Ermənistan dövlət sərhədi istiqamətində, eyni zamanda Rusiyanın müvəqqəti qaydada yerləşdirilmiş sülhməramlı qüvvələrinin nəzarətində olan bölgədə bir çox önəmli hadisələr baş verib. Biz dəfələrlə göstərmişik ki, bu torpaqların sahibləri bizik və heç kimə imkan vermərik ki, bizim ərazimizdə kimsə at oynatsın. Separatçılar da bilməlidirlər ki, onların iki seçimi var: ya Azərbaycan Bayrağı altında yaşayacaqlar, ya da ki, çıxıb gedəcəklər. Biz separatçıların əsas simalarından olan Serjik Sarkisyanı, Robert Koçaryanı, Seyran Ohanyanı Qarabağdan iti qovan kimi qovmuşuq, onları diz çökdürmüşük. Onlar İkinci Qarabağ müharibəsi zamanı Qarabağa gəlmişdilər, guya, bizimlə vuruşmağa gəlmişdilər. Üçü də bizim torpağımızdan dovşan kimi qaçdı, indi heç biri heç burnunu da soxa bilmir nə Xankəndiyə, nə başqa bir yerə”.

# “Başqa variant yoxdur"

## Prezident İlham Əliyev: “Ermənistan prinsip etibarı ilə bizim yanaşma ilə razıdır”

**“Qarabağ və Şərqi Zəngəzurda görülmüş işlər bir daha göstərir ki, biz - bu torpaqların sahibləri dədə-baba torpaqlarımıza qayıtmışıq”.**

Bunu Prezident İlham Əliyev aprelin 18-də Salyan rayonunda Azərbaycan Televiziyasına müsahibəsində deyib. Dövlət başçısı qeyd edib ki, hazırda Qarabağın və Şərqi Zəngəzurun bərpa edilməsi məsələsi bizim üçün əsas prioritetdir və mənim bölgələrə səfərlərimin əksəriyyəti məhz o bölgələrə olan səfərlərdir: ”Qarabağda və Şərqi Zəngəzurda genişmiqyaslı bərpa-yenidənqurma işlərinin plan üzrə getdiyini vurğulayan dövlət başçısı bildirib: ”Qarabağ və Şərqi Zəngəzurda görülmüş işlər bir daha onu göstərir ki, biz - bu torpaqların sahibləri öz doğma dədə-baba torpaqlarımıza qayıtmışıq. Otuz il ərzində Ermənistan bu torpaqları viran qoyub, daş-daş üstə qoymayıb, talançılıq və soyğunçuluqla məşğul olub, barbarlıqla məşğul olub. Biz - bu torpaqların sahibləri isə gəlmişik qurmaq üçün, yaratmaq üçün. Ona görə müharibə başa çatan kimi dərhal artıq işə start verilmişdir”. Artıq iki yaşayış məntəqəsində - Ağalı və Talış kəndlərində keçmiş köçkünlərin hazırda yaşadıqlarını vurğulayan Prezident İlham Əliyev bildirib: ”Biz bu kəndlərin timsalında bütövlükdə gələcək Qarabağın və Şərqi Zəngəzurun simasını görürük - abad şəhərlər, abad kəndlər, ağıllı idarəetmə prinsipləri əsasında yaradılan infrastruktur. Yəni bütün bunlar göz qabağındadır. Yenə də deyirəm, bu iki layihə artıq bütün Azərbaycan əhalisinə və bütün dünyaya göstərir ki, gələcək Qarabağın və Şərqi Zəngəzurun siması necə olacaq”.

**“Bugünkü Azərbaycan Ordusu Zəfər çalmış eyni Azərbaycan Ordusundan qat-qat güclüdür”**

Dövlət başçısı bildirib ki, müharibədən sonrakı iki il yarım ərzində də ordu quruculuğu məsələlərinə çox böyük diqqət göstərilib: ”Bugünkü Azərbaycan Ordusu 2020-ci ildə Zəfər çalmış eyni Azərbaycan Ordusundan qat-qat güclüdür. Ancaq eyni zamanda yenə də demək istəyirəm, biz hər bir vəziyyətə hər an hazır olmalıyıq”. Ölkə başçısı deyib ki, dünyada gedən prosesləri hər kəs izləyir, dünyada təhdidlər artır, təhlükələr artır: ”Düzdür, biz İkinci Qarabağ müharibəsində düşmənin başını əzərək möhtəşəm Qələbə əldə etmişik. Ancaq Ermənistanda revanşist qüvvələr yenə baş qaldırır, biz istənilən vəziyyətə hazır olmalıyıq və elə bir ordu yaratmalıyıq ki, dünya miqyasında nümunəvi olsun və ən güclü ordulardan biri olsun. Bu gün də Azərbaycan Ordusu güclüdür”.

**“Keçmiş köçkünləri Laçın şəhərinə vaxtından əvvəl qaytaracağıq”**

Ölkə başçısı deyib ki, bundan əvvəl keçmiş köçkünlərin bu ilin sonuna qədər Laçın şəhərinə qaytarılacağını demişdi: ”Bax, bu gün tam əminliklə deyə bilərəm ki, biz yay aylarında artıq buna nail olacağıq. Yəni biz bu işi vaxtından tez görürük”. Prezident deyib ki, yaxın zamanlarda Şuşada ikinci böyük yaşayış kompleksinin təməli qoyulacaq: ”Şuşa şəhərində birinci yaşayış kompleksi uğurla inşa edilir. Biz ikinci böyük yaşayış kompleksinin, yəni bir çox evlərdən ibarət layihənin təməlini yaxın zamanlarda qoyacağıq”. Dövlət başçısı, həmçinin deyib ki, Ağdam, Füzuli, Zəngilan şəhərlərində yaşayış binalarının inşası plan üzrə gedir, Kəlbəcər və Cəbrayıl şəhərlərində isə buna hazırlıq işləri görülür.

> “Qarabağda yaşayan ermənilər ya Azərbaycan vətəndaşlığını qəbul etməlidirlər, ya da özləri üçün başqa yaşayış yeri tapmalıdırlar”

**“Ermənistan qəbul edib ki, iki ölkə arasında sərhədlər Almatı Bəyannaməsi əsasında həll olunmalıdır”**

Prezident vurğulayıb ki, sülh müqaviləsinin imzalanması ilə əlaqədar Ermənistan tərəfinin mövqeyində son iki il ərzində müxtəlif ziqzaqlar olub, yəni müxtəlif dəyişikliklər olub: Ermənistan da prinsip etibarı ilə bizim yanaşma ilə razıdır. Çünki başqa variant da yoxdur. Məhz buna görə keçən ilin oktyabr ayında Praqa və Soçi görüşlərində Ermənistan Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini rəsmən qəbul edib. Yəni qəbul edib ki, Azərbaycan ilə Ermənistan arasında sərhədlər - 1991-ci ilin Almatı Bəyannaməsi əsasında həll olunmalıdır. Vaxtilə ”Qarabağ Ermənistandır və nöqtə” deyən Ermənistan bu gün ”Qarabağ Azərbaycandır və nida” sözlərimizi təkrar etməlidir. Çünki əgər ”A” deyibsə ”B” də deməlidir. Almatı Bəyannaməsini əsas götürüb bunun üzərində sülh müqaviləsinə hazır olduğunu göstərən Ermənistan artıq rəsmən bəyan etməlidir ki, Qarabağ Azərbaycandır”. Ölkə başçısı qeyd edib ki, dəfələrlə bəyan etmişdik ki, daxili işlərimizi heç bir ölkə ilə müzakirə etməyəcəyik: ”Qarabağ bizim daxili işimizdir. Qarabağda yaşayan ermənilər ya Azərbaycan vətəndaşlığını qəbul etməlidirlər, ya da özləri üçün başqa yaşayış yeri tapmalıdırlar. Burada tam sərbəstlik var, bütün demokratik əsaslar təklif olunur. Bu məsələ insan hüquqları əsasında öz həllini tapmalıdır”.

**“Separatçı təlxəklər toplusu, nəhayət bilməlidir ki, bizim səbrimizlə oynamaq olmaz”**

Prezident qeyd edib ki, hazırda özləri üçün qondarma adlar uyduran separatçılar, bu təlxəklər toplusu, nəhayət bilməlidir ki, bizim səbrimizlə oynamaq olmaz: ”Biz onlara müxtəlif yollarla dəfələrlə izah etməyə çalışmışıq ki, onlar ya bizim sözümüzlə oturub duracaqlar, ya da ki, oradan rədd olacaqlar və orada yaşayan, onların faktiki olaraq girovuna, əsirinə çevrilmiş erməniləri də rahat buraxacaqlar. Mən əminəm ki, hazırda Qarabağda yaşayan erməni əhalisinin əksəriyyəti Azərbaycan vətəndaşlığını qəbul etməyə hazırdır. Sadəcə olaraq, bu zəlilər, bu yırtıcı heyvanlar, separatçılar qoymurlar. Qoymurlar ki, bu insanlar rahat yaşasınlar, 30 il bunları girov kimi saxlayıblar. Ona görə mənim mövqeyim bundan ibarətdir, bunu hər kəs eşitsin, həm Ermənistan rəhbərliyi, həm bu gün onların arxasında dayanan qüvvələr, bizim iradəmizə heç kim təsir edə bilməz. Biz bunu sübut etmişik, müharibə zamanı və müharibədən sonra. Lazım olarsa, bir də sübut edərik istənilən formada”.

**“Bu məxluqu Ermənistanda qəhrəmanlaşdırırlar”**

Prezident İlham Əliyev Ermənistanda Azərbaycan bayrağının yandırılmasından da danışıb: ”Hesab edirəm ki, bu, erməni hökumətinin növbəti çirkin əməlidir. Mən bunu belə qəbul edirəm. Bu, təsadüfən baş vermiş, hansısa bir fərdin əməli deyil. Bu, Ermənistan hökumətinin növbəti çirkin əməlidir. Bunu deməyə əsas verən bir çox səbəblər var. Birincisi, bu hadisəni törədən insanabənzər məxluq Ermənistan hakim dairələrinin yüksəksəviyyəli şəxsləri ilə birbaşa təmasdadır. İkincisi, bu məxluqa heç bir cəza verilmədi, əksinə, Ermənistanda onu qəhrəmanlaşdırırlar. Guya onu saxlayıblar, ondan bir neçə dəqiqə sonra buraxıblar. Orada bir şou düzəldiblər, onu alqışlarla qarşılayıblar və bu adama qarşı heç bir cəza tədbiri, heç cərimə də tətbiq olunmayıb. Yəni bu, nəyi göstərir?”.

**İsmayıl**

# Hərbi əməkdaşlığın konturları görünür

## Zakir Həsənov Qazaxıstanda mühüm məsləhətləşmələr aparır



**Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Qazaxıstan Respublikasının müdafiə naziri general-polkovnik Ruslan Jaksılıkovun dəvəti ilə aprelin 18-də bu ölkəyə rəsmi səfər edib.**

Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.

Bildirilib ki, səfər çərçivəsində keçiriləcək görüşdə ölkələrimiz arasında hərbi, hərbi-texniki, hərbi-təhsil sahələrində əməkdaşlığın inkişaf perspektivləri, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlərin müzakirəsi planlaşdırılır.

**Səfəri ”Şərq”ə dəyərləndirən hərbi ekspert Elxan Şıxəliyev söyləyib ki, müdafiə nazirinin Qazaxıstan səfəri Prezident İlham Əliyevin yaxınlardakı səfəri çərçivəsində əməkdaşlığın artırılması üçün məsləhətləşmələrin nəticəsidir:** ”44 günlük savaşdan sonra silahlı qüvvələrimizin döyüş təcrübəsi, arsenalımızda olan texnikalar və pilotsuz uçuş aparatları (PUA) bir çox ölkənin diqqətini cəlb edir. Bu silahlar və PUA-lar gələcəkdə Qazaxıstanın da arsenalına daxil ola bilər. Bu səbəblə də hərbi təhsil, türk modelinə keçid, Qazaxıstan və Azərbaycan silahlı qüvvələrinin arasında baş tutacaq təlimlər fonunda məsləhətləşmələr aparılır. Qazaxıstanın KTMT-yə üzv olması isə hərbi əməkdaşlığımızı məhdudlaşdırmır. Adətən, dövlətlər ikili müttəfiqlik sazişləri üzərinə, hərbi təlimlər həyata keçirə bilər”.

Ekspert qeyd edib ki, gələcəkdə TDT-yə üzv olan ölkələrin silahlı qüvvələrinin koordinasıyası üçün qarşılıqlı hərbi əməkdaşlıqlar və təlimlər vacibdir: ”Qazaxıstan da bu yeni mərhələyə keçid etməyə maraqlı olan ölkələr arasındadır. Ona görə də silahlı qüvvələrimiz arasındakı təcrübələr bölüşülür. Zakir Həsənovun səfərindən sonra Müdafiə Nazirliyinin fərqli qoşun növlərinin komandanlarının və ya heyətlərinin də qarşılıqlı təmaslarının olacağını düşünürəm. Həmçinin Qazaxıstan zabitləri də bizim xidmət keçən bəzi komandanlar kimi Türkiyə hərbi akademiyalarından məzun olub. Ona görə də həm müdafiə sənayesi, həm də təhlükəsizlik konsepsiyaları cəhətdən Qazaxıstanın Azərbaycanla məsləhətləşmələr aparmağa maraqlı olacağını düşünürəm. Ümumiyyətlə, bu səfər Azərbaycan-Qazaxıstan arasındakı münasibətləri bir addım da önə daşıyacaq”.

# Əsir götürülmüş Azərbaycan əsgərləri ilə bağlı Britaniya XİN rəhbərinə müraciət olunub



**Londonda fəaliyyət göstərən Britaniya Azərbaycanlıları İcmasının rəhbəri Fəridə Pənahova Ermənistanda əsir götürülmüş Azərbaycan əsgərləri ilə bağlı Böyük Britaniyanın xarici işlər naziri Ceyms Kleverliyə məktubla müraciət edib.**

Diasporla İş üzrə Dövlət Komitəsindən verilən xəbərə görə, məktubda Azərbaycan Ordusu əsgərlərinin - 2004-cü il təvəllüdlü Bəbirov Aqşin Qabil oğlunun və 2003-cü il təvəllüdlü Axundov Hüseyn Əhliman oğlunun Ermənistana əsir düşmələri səbəbinə aydınlıq gətirilib, hərbçilərimizə qarşı törədilmiş qeyri-insanı hərəkətlərə diqqət cəlb edilib. Bu cinayətkar insident beynəlxalq humanitar qanunların Ermənistan tərəfindən kobudcasına pozulması kimi qiymətləndirilib. Müvafiq beynəlxalq təşkilatların təkcə bu cinayətkar insidenti deyil, həm də Ermənistan tərəfindən son 30 ildən artıq müddət ərzində itkin düşmüş 3890 nəfər azərbaycanlıya qarşı zorakılık aktlarını araşdırmasının və hüquqi qiymət verməsinin vacib olduğu vurğulanıb. Ermənistanın mühüm beynəlxalq aktları, o cümlədən Cenevrə Konvensiyası, işgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyalar üzrə öhdəliklərini yerinə yetirmədiyi bir daha nəzərə çatdırılıb.

Azərbaycanlı hərbçilərə işgəncə verilməsini qətiyyətlə pisləyən icma rəhbəri britaniyalı naziri bu məsələyə müdaxilə etməyə çağırıb: ”Böyük Britaniyanın beynəlxalq hüququn pozulmasına dözməyəcəyinə dair dünyaya aydın mesaj göndərməyimiz və bizim bu iki əsgər barədə ədalətə nail olmaq üçün səylər göstərən Azərbaycan hökuməti ilə həmrəy olduğumuzu bildirmək vacibdir. Biz inanırıq ki, insan haqlarını və qanunun aliliyini müdafiə etməklə biz dünyanı hamı üçün daha təhlükəsiz və daha ədalətli məkana çevirə bilərik”.



**Qərbi Azərbaycan İcmasında ”Qərbi Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında könüllülərin fəaliyyətinin təşviq edilməsi” məqsədilə məlumatlandırma sessiyası keçirilib. Tədbir Qərbi**

# "Tarixi torpaqlarımıza sülh yolu ilə qayıtmaq istəyirik"

## Əziz Ələkbərli: “Qərbi Azərbaycanla bağlı həqiqətləri dünyaya çatdırmağın zamanıdır”

**Azərbaycan İcması, ”Regional İnkişaf” İctimai Birliyi və Azərbaycan Könüllü Təşkilatları İttifaqının birlikdə təşəbbüsü ilə baş tutub.**

Qərbi Azərbaycan İcmasının sədri deputat Əziz Ələkbərli azərbaycanlıların öz yurdlarında təhlükəsizliyinin vacibliyini diqqətə çatdırıb. Məhz bu cür çağırışların dünya ictimaiyyətinə çatdırılmasında gənclərin fəaliyyətinin intensivləşdirilməsinin zəruriliyini qeyd edib.

**Qərbi Azərbaycan İcmasının sədri Əziz Ələkbərli deyib ki, konsepsiyaya uyğun olaraq, tarixi torpaqlarımıza sülh yolu ilə qayıtmaq istəyirlər:** ”Bunu Cənab Prezident öz çıxışlarında da dəfələrlə qeyd edib. Son 200 ildə azərbaycanlı soydaşlarımıza qarşı edilən aktlara görə, həmin torpaqlara qayıdışımız beynəlxalq zəmanətlə ola bilər”. İcma sədri son 35 ildə Azərbaycanın tarixi torpaqlarında infrastrukturun dağıdıldığını qeyd edib: ”Bizim insanlarımız ora qayıdarkən onlar üçün yaşam şəraiti bərpa edilməlidir. Və o adamlar öz tarixi torpaqlarında vətəndaş kimi həyatlarını davam etdirməlidirlər”.

Ə.Ələkbərli qeyd edib ki, Qərbi Azərbaycan həqiqətlərini bilən, məlumatı olan gənclik yetişməlidir. Azərbaycana qarşı tarixi haqsızlıq və təcavüz siyasətinə beynəlxalq arenada lazımi qiymət verilmədiyini qeyd edən icma sədri təbliğat məsələsinin vacibliyini vurğulayıb: ”Biz Qarabağla bağlı həqiqətlərimizi yavaş-yavaş dünyaya çatdırmaqdayıq. İndi isə Qərbi Azərbaycanla bağlı həqiqətləri dünyaya çatdırmaq, təbliğ etməyin zamanıdır və bu, bir nəfərin işi deyil”.

Gənclər və idman nazirinin müavini İndira Hacıyeva bildirib ki, gənclərin Qərbi azərbaycanlıların öz yurd-yuvasına geri qayıtması uğrunda apardığı bu haqq mübarizədə daha yaxından iştirakı çox böyük önəm daşıyır: ”Azərbaycan gəncliyi istər ölkə daxilində, istərsə də xaricdə bu mübarizəyə dəstək verəcək kifayət qədər gücə və əzmə malikdir”. Sonra Gənclər Fondunun, ”Regional İnkişaf” İctimai Birliyinin və Azərbaycan Könüllü Təşkilatları İttifaqının nümayəndələri çıxış ediblər. Çıxışlar zamanı Qərbi Azərbaycan mövzusunun hər bir azərbaycanlının milli məsələsi olması və gənclərin bu məsələdə fəallıq göstərməli olduğu xüsusilə vurğulanıb. Daha sonra Qərbi Azərbaycan İcmasının Gənclər Birliyinin sədri, millət vəkili Ramin Məmmədovun təqdimatı baş tutub. Yekunda Qərbi Azərbaycandan olan könüllülər çıxış edərək yaxınlarının və özlərinin bu deportasiyalar və soyqırımları nəticəsində yaşadıqları ağrı-acılardan bəhs edərək Qərbi Azərbaycanlılar və onların yaşadıqları, eləcə də geri qayıdış hüquqları ilə bağlı gənclərin daha da fəal iştirak edəcəyini bildiriblər.

**İsmayıl**



# Danışıqlar masasında vəziyyət mürəkkəbdir

## Paşinyanın Qərbin vasitəçiliyi ilə sülh sazişini imzalamaqda öz maraqları var

**Ermənistan hökuməti ötən ildən bu yana Azərbaycanla aparılan danışıqlarla bağlı hesabat açıqlayıb. Danışıqların 5 istiqamətdə həyata keçirildiyi bildirilib. Bunlar - sülh müqaviləsi, "Qarabağ problemi"nin həlli, nəqliyyat və iqtisadi kommunikasiyaların yaradılması, sərhədlərin demarkasiyası və təhlükəsizlik-humanitar məsələlərdir.**

Hesabatda qeyd olunub ki, rəsmi İrəvanın əsas prioriteti 29,8 min kvadratkilometr ərazidə təhlükəsizliyin təmin edilməsidir. Azərbaycan bununla bağlı rəsmi mövqeyini açıqlayıb. Dövlət başçısı İlham Əliyev bu ilin martında bəyan edib ki, "Ermənistanın 29 min kvadratkilometr ərazidə rahat yaşaması üçün bir şərt var, bizim şərtlərimizi qəbul etməlidir. Rəsmən Qarabağı Azərbaycan ərazisi kimi tanımalıdır, bizimlə sülh müqaviləsi imzalamalıdır, bizim şərtlərə əsasən, delimitasiya işlərini aparmalıdır". Ermənistanın mövqeyi belədir ki, Qarabağ məsələsini sülh sazişindən ayıra bilərlər, lakin bunun üçün "Xankəndi-Bakı" formatı qurulmalı, Qarabağdakı ermənilərin hüquq və təhlükəsizliyinin qorunması üçün beynəlxalq mexanizmlər formalaşdırılmalıdır. Analitiklərin fikrincə, bu, separatçıları "tərəfə" çevirmək, "ermənilərin hüquq və təhlükəsizliyi" adı altında iddialarını davam etdirmək deməkdir. Ötən gün Baş nazir Nikol Paşinyan parlamentin iclasında deyib ki, Azərbaycanla sülh müqaviləsinin imzalanması üçün beynəlxalq təminatlara ehtiyac var. Onun sözlərinə görə, sülh sazişinin həyata keçirilməsinə zəmanət verən beynəlxalq mexanizmlərin yaradılması son dərəcə vacibdir: "Əks halda, imzalanan gündən bir gün sonra müharibə başlaya və ya yeni eskalasiya baş verə bilər". Nikol Paşinyan İrəvanın Azərbaycanın ərazi bütövlüyünü tanıdığını yenidən vurğulayıb: "Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tam formada tanıyır". Hökumət başçısının sözlərinə görə, keçmiş Qarabağ münaqişəsinin bütün dövrü ərzində "öz müqəddəratını təyinetmə hüququ" və ərazi bütövlüyü prinsipləri yanyana dayanıb: "Ermənistan tərəfi bununla özünü və Qarabağdakı erməniləri aldadıb".

**Siyasi şərhçi Asif Nərimanlı bildirib ki, müəyyən amillər reallığın verilən müsbət bəyanatlardan fərqli olduğunu göstərir. Ekspert vurğulayıb ki, əsas amil geosiyasi oyunçuların bölgədə vasitəçilik üzərindən apardığı mübarizə və bunun tərəflərə təsiridir:** "Qarabağ və regional məsələlərə yanaşmada Qərb və Rusiya masasında fərqlər var. Qərbin Qarabağ məsələsinə yanaşması Bakının istədiyinə uyğundur. Kommunikasiyanın açılması və sərhədin delimitasiyası ilə bağlı yanaşması əksinədir. Rusiyanın sərhədin delimitasiyası və kommunikasiyanın açılmasına (Zəngəzur dəhlizi) yanaşması Bakının istəyinə uyğun gəlir, Qarabağ məsələsində əksinədir. Bu fərqlər uzlaşmanı çətinləşdirir. Ermənistan isə sülh müqaviləsini Qərb masasındakı razılaşmalarla imzalamağa çalışır. Proseslərin bu istiqamətdə inkişafı, Rusiya sülhməramlılarının Azərbaycan ərazisində olduğu müddətdə sülh sazişinin Qərb masasında imzalanması Bakı üçün təhlükəli perspektiv vəd edir. Bu baxımdan, Azərbaycan tərəfi beynəlxalq konsensusa nail olmaqdan yanadır. Bu hələ mümkünsüz görünür".

**Politoloq qeyd edib ki, Paşinyanın Qərbin vasitəçiliyi ilə sülh sazişini imzalamaqda öz hədəfləri var:** "Qarabağ məsələsini Bakı-Moskva xəttindəki probleme çevirirlər. "Bakı-Xankəndi" formatı, eləcə də erməni əhalisinin "hüquq və təhlükəsizliyi" kimi məsələlər üzərindən Qarabağda "hüquqi münaqişə" yaradırlar. Digər yandan kommunikasiyanın açılmasında Naxçıvana maneəsiz keçid vermək öhdəliyindən imtina edirlər. 29,8 min km ərazini saxlamağa çalışırlar. Paşinyanın da bildirdiyi kimi, bu, SSRİ dağılanda mövcud olan sərhəd xətlərinin saxlanılması, delimitasiya-demarkasiya prosesinin bu xətlərə uyğun aparılması deməkdir. Bununla SSRİ dövründə Ermənistana bağışlanan ərazilərimizin qaytarılması perspektivi sıradan çıxır. Eləcə də müharibədən sonra ordu bərpa olunan sərhəddən geri çəkilir. Danışıqlar prosesində vəziyyət kifayət qədər mürəkkəb görünür və məsələ heç də Paşinyanın bəyan etdiyi kimi "Azərbaycanın ərazi bütövlüyünü tanıyırıq" deməklə həll olunana bənzəmir".

**İsmayıl Qocayev**

# "Türkiyədə Ulu Öndərə həmişə böyük ehtiram, hörmət göstərilib"

## Zahid Oruc: "Biz 100 illik keçmişə baxdıqda, onun, həqiqətən də, regionda, türk dünyasında böyük miqyasda şəxsiyyət olduğunu görə bilirik"



**Azərbaycanlı jurnalist, hazırda Türkiyənin Bursa şəhərində yaşayan Günay Arda həmin şəhərdə yerləşən prospektlərdən birinə Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin adının verilməsi təklifi ilə müraciət edib. "Şərq" müraciəti təqdim edir:**

***Bursa şəhər bələdiyyə başqanı Alinur Aktaşa***

Hörmətli Alinur Aktaş, mən, azərbaycanlı jurnalist Günay Arda Türkiyə Sənətçilər Birliyi Bursa təmsilçisiyəm. 2021-ci ilin sentyabr ayından Bursada yaşayıram.

Hörmətli başqanım, 2023 -cü il Azərbaycan Prezidenti cənab İlham Əliyevin qərarı ilə türk dünyasının önəmli lideri mərhum Heydər Əliyevin dünyaya göz açmasının 100-cü ilidir. Bu səbəblə bütün türk respublikalarında Heydər Əliyev günləri keçirilir.

Hörmətli başqanım, Fatihlər şəhəri Bursada yaşadığım üçün qürur duyduğumu söyləyir, Sizdən bir rica etmək istəyirəm. Heydər Əliyevin türk dünyası üçün əhəmiyyətini və etdiyi fədakarlığı nəzərə alaraq Sizdən Bursada uyğun görülən prospektin Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin adını daşıması üçün qərar verməyinizi rica edirəm.

**Təklifə münasibət bildirən Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin sədri, Milli Məclisin insan hüquqları komitəsinin sədri, millət vəkili Zahid Oruc "Şərq"ə açıqlamasında vurğulayıb ki, Türkiyədə Ulu Öndər Heydər Əliyevə hər zaman böyük ehtiram və hörmətlə yanaşılıb:**

"Dövlət adamları, alimlər, ziyalılar və sadə xalqın nümayəndələri Heydər Əliyevin keçdiyi həyat yolunu, sovetlər birliyinin rəhbərliyində olduğu dövrü, həmçinin müstəqil Azərbaycanın quruculuğundakı xidmətlərini çox yaxşı bilirlər. Bundan 30 il öncəyə qayıtdığımızda, görə bilərik ki, türk dünyası arasında yaxın münasibətləri və indiki dövrdə beynəlxalq təşkilat səviyyəsinə yüksəlmiş TDT-nin əsasını qoyanlardan biri də Heydər Əliyev olub. Bu mənada Bursada, Osmanlı dövrünün mirasını özündə daşıyan bir şəhərdə Heydər Əliyevin adı ilə bağlı parkların, meydanların və qalıcı olan abidələrin açılışı Ulu Öndərin 100 illiyi münasibətilə mühüm bir addım olardı".

*Parlamentari əlavə edib ki, biz Türkiyədə və türk dünyasında Heydər Əliyevin adı ilə bağlı müxtəlif məktəblər, meydanlar, muzeylər təhsil ocaqlarının mövcud olduğunu bilirik:*

"Biz Heydər Əliyevin 100 illik keçmişinə baxdıqda, onun, həqiqətən də, regionun, türk dünyasının və bütöv dünyanın həyatında baş verən dəyişikliklər fonunda böyük miqyasda şəxsiyyət olduğunu görə bilirik. Bu mənada Bursa və Türkiyənin digər şəhərlərində Ulu Öndərin adının və böyük xidmətlərinin müxtəlif simvollarla əbədiləşdirilməsi çox yerinə düşər. Ümidvarıq ki, Türkiyə dövlətinin rəhbərliyi və sadə xalqı bu istiqamətdə müxtəlif planlara, təkliflərə, təşəbbüslərə malikdir".

**Nihat Müzəffər**

# "İranın əlində çox kart qalmayıb"

## Əhməd Obalı: "Yəqin ki, terror qruplarından və yaratdığı "beşinci kolon"dan istifadə edəcək"




**Bakıda Topçubaşov Mərkəzinin təşkilatçılığı ilə "Güney Azərbaycan məsələsi beynəlxalq mediada" adlı dəyirmi masa keçirilib. Görüşdə Azərbaycanda səfərdə olan güney azərbaycanlı fəallar Sadıq İsabəyli (Sedaqat Xaledi), "Günaz TV"nin təsisçisi Əhməd Obalı və Çingiz Göytürk (Behruz Sultanpur) iştirak ediblər.**

Tədbirdə Güney Azərbaycanda baş verən etnik və mədəni diskriminasiya, bu məsələlərin beynəlxalq aləmdə işıqlandırılması müzakirə olunub. Qeyd edilib ki, Güney Azərbaycan məsələsi ilə bağlı İranda son dövrlərdə baş verən proseslər, xalq etirazları, ekoloji fəlakətlər, etnik diskriminasiya həmin ölkədə yaşayan milyonlarla azərbaycanlının mövcud vəziyyəti və gələcək taleyi ilə bağlı böyük narahatlıq yaradır. İran cəmiyyətində sayca və keyfiyyətcə üstün mövqedə olan azərbaycanlılar hələ də bir çox hallarda fundamental insan hüquqlarından məhrum olur və etnik ayrı-seçkiliyə məruz qalırlar. Ümumilikdə, İran və orada daxili dinamika beynəlxalq mətbuat tərəfindən işıqlandırılsa da, güney azərbaycanlıların problemləri gündəmə düşmür.

"Günaz TV"nin təsisçisi Əhməd Obalı deyib ki, İranda qız məktəblərinə hücumları dövlət içərisində olan müəyyən qruplar təşkil edir. O bildirib ki, həmin qruplar Prezident İbrahim Rəisiyə yaxın olanlardır: "Sıravi şəxslər bu qədər zəhəri əldə edə bilməz. Onlar millətdən qisas almaq istəyirlər. Təkcə birinci zəhərlənmə hadisəsində 7 mindən çox qız zəhərlənmişdi. Amma hökumət bu rəqəmin 2 min olduğunu açıqlamışdı. Ondan sonra yenə də proses davam edib. Hazırda zəhərlənənlərin sayı 20 minə yaxındır".

**"İran Ermənistanın məğlubiyyətini həzm edə bilmir"**

**Əhməd Obalı bildirib ki, İran Ermənistanın məğlubiyyətini həzm edə bilmir:** "İranda aylardır aksiyalar davam edir. Son zamanlar səngisə də, bunun davamlı olacağı gözlənilir. Çünki İranda qadınlara azadlıq verilmir, iqtisadiyyat çöküb, rejim milləti idarə edə bilmir və millət də rejimi istəmir. Son 3 gün ərzində yenə də qız şagirdlərə qarşı bir neçə məktəbdə kimyəvi hücumlar davam edib. İran dövləti siyasətini farsçılıq üzərində qurduğuna görə türk düşmənçiliyi amili aradan qalxmayacaq. Azərbaycan gücləndikcə İran müəyyən addımlar atmağa çalışır. Ermənistan müharibəni uduzsa da, İran o məğlubiyyəti həzm edə bilmir. Lakin İranın əlində çox kart qalmayıb. Yəqin ki, terror qruplarından və yaratdığı "beşinci kolon"dan istifadə edəcək. Amma Azərbaycan güclənir və bütün dünya, o cümlədən də ABŞ Azərbaycanın tərəfini tutub".

**"İran müstəqil Azərbaycanın varlığını özünə təhdid görür"**

Finlandiyada yaşayan cənubi azərbaycanlı fəal Çingiz Göytürk deyib ki, İran müstəqil Azərbaycan dövlətinin varlığını öz müstəqilliyinə təhdid olaraq görür. O bildirib ki, bu səbəbdən də İran fars rejimi Azərbaycanın zəifləməsi, gücsüzləşməsi üçün dəridən-qabıqdan çıxır: "Azərbaycan xüsusən 44 günlük Vətən müharibəsindən sonra reallaşdırılan layihələrlə dünyanın diqqətini cəlb edib. Bu da İranın get-gedə əhəmiyyətsizləşməsinə gətirib çıxarıb. Ona görə də bu layihələrin qarşısını almağa çalışır. Bunun üçün Azərbaycanın daxilində qurduğu terror ocaqları vasitəsilə təxribatlar törətməyə cəhd edir. Lakin Azərbaycan göstərdi ki, bizim cəmiyyət Yəmən, İraq cəmiyyəti deyil, daha bilinclidir və təxribatlara uymurlar".

**"Etirazlar qismən səngimiş olsa da, milli hərəkatlar davam etməkdədir"**

Çingiz Göytürk bəyan edib ki, bu gün İran adlanan məkanda ən önəmli siyasi cərəyan qeyr-fars millətlərinin başlatdığı prosesdir. Onun sözlərinə görə, ölkədə etirazlar qismən səngimiş olsa da, milli hərəkatlar davam etməkdədir: "Oranı tədirginliyə çəkən əsas amil də məhz bu milli hərəkatlardı. İranın ölkəmizə qarşı birmənalı münasibətinin olmamasına səbəb orada yaşayan 40 milyon Azərbaycan türkünün varlığıdır. Onlar dəfələrlə farsların qətliamlarına uğrayıb, ancaq inadlarından, mübarizələrindən geri çəkilməyiblər. İran Azərbaycan dövlətinin müstəqilliyindən, dünyada artan qüdrətindən qorxaraq, onu həzm edə bilmir".

**İsmayıl**

# Paşinyan sülh istəyirsə, bunu əməli işlə göstərməlidir

## Əgər Azərbaycanın ərazi bütövlüyünü qeyd-şərtsiz tanıyırsa, Qarabağdakı proseslərə əsla müdaxilə etməməlidir




**Ermənistanın Baş naziri Nikol Paşinyan parlamentin iclasında növbəti dəfə Azərbaycanla sülh prosesindən danışıb. Baş nazir bildirib ki, sülhə nail olmaq üçün qonşu ölkələrlə əlaqələr normallaşdırılmalıdır. Onun sözlərinə görə, söhbət Gürcüstan və İran məsələsində əməkdaşlığın daha da dərinləşdirilməsindən, həmçinin Türkiyə və Azərbaycanla münasibətlərin normallaşdırılmasından gedir.**

Paşinyan söyləyib ki, siyasi və diplomatik sahədə kompromislər əldə olunarsa, bu, Ermənistan vətəndaşlarının da xeyrinə olar: "Vətəndaşları inandırmaq Ermənistan hakimiyyətinin vəzifəsidir. İnsanlar başa düşdükdən sonra bu məsələyə razı olacaqlar. Hökumət onlara rəhbərliyin düşüncə prosesini və motivasiyasını aydın şəkildə çatdırmalıdır. Əgər bu edilməsə, o zaman Ermənistanın inkişafına heç kim imkan verməz". Baş nazir əlavə edib ki, əlaqələr normallaşmasa, Ermənistanın inkişafına imkan verilməyəcək: "Beynəlxalq ictimaiyyət 29 min 800 kv.km ərazini Ermənistan ərazisi kimi tanısa, region üçün sülh gələcək. Ermənistan isə heç bir ölkəyə ərazi iddiasının olmadığını bəyan edəcək".

**Qərbi Kaspi Universitetinin professoru Fikrət Sadıqov "Şərq"ə açıqlamasında bildirib ki, Ermənistan Baş naziri Nikol Paşinyanın sözləri ilə əməlləri ziddiyyət təşkil edir. Professorun sözlərinə görə, Paşinyanın ara-sıra bənzər bəyanatları gündəmə gəlir:** "Baş nazir bir neçə dəfə sülhdən danışıb, amma 10 noyabr üçtərəfli sazişinin imzalanmasından ötən iki il ərzində İrəvan hökuməti heç bir ciddi addım atmayıb. Məhz Ermənistana görə sazişin müddəaları yerinə yetirilmir. Qanunsuz silahlı birləşmələr hələ də Qarabağ ərazisindədir. Zəngəzur dəhlizinin açılması istiqamətində heç bir təşəbbüs göstərilmir. Sərhədlərin demarkasiya və delimitasiya prosesi getmir. Paşinyan bəyan edir ki, guya, "Azərbaycanın ərazi bütövlüyünü tanıyırlar", ancaq eyni zamanda rəsmi Bakı ilə imzalanacaq sülh sazişinə "etnik ermənilərin təhlükəsizliyi" ilə bağlı xüsusi maddə əlavə etmək istəyirlər. Əgər Ermənistan rəhbərliyi iddia etdiyi kimi ərazi bütövlüyümüzü qeyd-şərtsiz tanıyırsa, Qarabağdakı proseslərə əsla müdaxilə etməməlidir. Çünki Qarabağ Azərbaycan ərazisidir və orada baş verənlər də daxili işimizdir. Paşinyan həqiqətən Azərbaycanla sülh müqaviləsinin imzalanmasını, qonşularla əlaqələrin normallaşmasını istəyirsə, əməli işlərlə bunu sübuta yetirməlidir. O halda baş nazirin sözləri mahiyyət kəsb edəcək".

**F.Sadıqov Ermənistan baş nazirinin təxribatlara görə daxili və xarici gücləri ittiham etməsinə, orduda "5-ci kolon" iddiasına da münasibət bildirib:** "Paşinyan Qarabağ probleminə görə, keçmiş hakimiyyəti, Sarkisyan-Koçaryan cütlüyünü ittiham edir. Bildirir ki, Ermənistanın indiki vəziyyətə gəlməsinin günahı onlardadır. Baş nazirə görə, münaqişə vaxtında başqa yolla həllini tapsaydı, müharibə olmazdı. Ancaq baş nazir yanılır, çünki erməni işğalı, sadəcə, Qarabağla məhdudlaşmamışdı. Ermənistan Azərbaycanın digər bölgələrini də işğala məruz qoymuşdu və torpaq iddialarını davam etdirirdi. Paşinyanın ölkədə "5-ci kolon" axtarışı, keçmiş klanı suçlaması daxili auditoriyaya hesablanmış çıxışlardır. Rəsmi Bakının İrəvandan tələbi açıq və konkretdir. Ermənistan sülh müqaviləsini imzalasın və bütün əsassız iddialardan əl çəksin".

**İsmayıl Qocayev**




# İcazə verildi

## Quru sərhədi təkcə tələbələr üçün yox, vətəndaşlara da açılmalıdır

**Türkiyədə təhsil alan azərbaycanlı tələbələrin Vətənə quru sərhədlə keçməsinə icazə verilib. Bu barədə Azərbaycanın Türkiyədəki Səfirliyinin orada təhsil alan Azərbaycan vətəndaşlarına müraciətində bildirilib.**

”Türkiyədə ikinci semestrdə təhsilin distant qaydada həyata keçirilməsi ilə bağlı qəbul edilmiş qərar səbəbindən hazırda həmin ölkədə subbakalavr, bakalavr, magistratura, doktorantura və rezidentura təhsili alan Azərbaycan vətəndaşları və onların birinci dərəcəli ailə üzvlərinin (ata/ana, ər/arvad, övladlar) tələbə biletini təqdim etməklə zəruri icazə olmadan mayın 10-dək quru sərhədlər vasitəsilə Azərbaycana daxil olmalarına icazə verilib”,- müraciətdə qeyd olunub.

**Təhsil eksperti Kamran Əsədov ”Şərq”ə açıqlamasında qeyd etdi ki, məlum qərar tələbələrin daha rahat gediş-gəlişinin təmin edilməsi məqsədi daşıyır:**

- Bildiyimiz kimi qardaş Türkiyədə baş vermiş dəhşətli zəlzələ təhsilə də mənfi təsirini göstərdi. Orta məktəblərdə tədrisdə fasilə yarandı, ali məktəblər də məcburi distant təhsilə keçdi. Hətta tələbə yataqxanaları boşaldılaraq zəlzələdən zərər çəkənlərə müvəqqəti sığınacaq oldu. Mayın 10-dan etibarənsə Türkiyədə ali məktəblərin ənənəvi tədrisə qayıdacağı gözlənilir. Ona görə də tələbələr, o cümlədən də xarici ölkə vətəndaşı olan tələbələrin rahat gediş-gəlişinin təmin olunması məqsədilə quru sərhədləri vasitəsilə sərbəst keçidinə icazə verilir. Məlumdur ki, Türkiyədə təhsil alan azərbaycanlı tələbələrin sayı çoxdur. Türkiyənin 206 ali təhsil müəssisəsində 22 minə yaxın azərbaycanlı tələbə təhsil alır. Bu qədər tələbə üçün təyyarə sayı da yetərli deyil, reyslər də rentabelli deyil deyə, quru sərhədlərlə keçidə üstünlük verilir. Quru yolla gediş-gəliş təbii ki, tələbələr üçün daha əlverişlidir. Yol xərci təyyarə ilə uçuşdan dəfələrlə ucuzdur. Quru yolla gediş-gəlişdə daşınma xərcləri də lazım gəlmir. Elə tələbələr var Türkiyənin iç bölgələrində təhsil alırlar. Təyyarə ilə gediş-gəlişdə məcburdurlar təyyarədən sonra avtobusla uzun məsafə qət edib başqa bölgəyə səfər etsinlər. Bu da ikiqat xərc deməkdir. Bütün mənalarda quru yolla hərəkət etmək sərfəlidir.

**Kamran Əsədov:**
*“Tibbi müayinə, müalicə üçün getmək istəyənlər, doğmasını, qohumunu ziyarət etmək istəyənlər var”*



**K.Əsədov yaxın zamanda quru sərhədlərin ümumiyyətlə bütün təbəqədən olan vətəndaşlar üçün açılmasını arzu etdiyini dedi:**

- Əlbəttə, mən də arzu edirəm ki, quru sərhədlər tezliklə açılsın, təkcə tələbələr yox, digər vətəndaşlar da daha rahat və əlverişli şəkildə bir ölkədən digərinə gediş-gəliş edə bilsin. Çünki problem yalnız təhsil alanlarla bağlı deyil. İqtisadi məsələlər var, tibbi müayinə, müalicə üçün getmək istəyənlər, doğmasını, qohumunu ziyarət etmək istəyənlər var, həm də quru sərhədlərin açılması turizmi daha da canlandıra bilər. Amma bu, bizim istəyimizə bağlı məsələ də deyil. Yəqin ki, hökumət bu məsələ üzərində düşünür. Vəziyyətə uyğun qərar veriləcək.

**Məlahət Rzayeva**

# Gizli saxlayırlar

## İran azərbaycanlı tələbəni məqsədli şəkildə girov götürüb

**Azərbaycan Xarici İşlər Nazirliyi İranda itkin düşən azərbaycanlı Fərid Səfərli barədə növbəti açıqlama yayıb. Xarici İşlər Nazirliyinin Mətbuat Xidməti idarəsinin rəisi Ayxan Hacızadə deyib ki, İranda itkin düşən azərbaycanlı tələbədən hələ də məlumat yoxdur: ”Hazırda bu məsələ araşdırılır”.**



Bununla bağlı dəfələrlə İranın Azərbaycandakı səfirliyinə nota verilib. Qeyd edək ki, Almaniyanın Yena Universitetinin tələbəsi, 1997-ci il doğumlu Fərid Qabil oğlu Səfərli bu il fevralın 20-də İrana səfər edib. Martın 4-dən bəri isə ondan xəbər yoxdur. Məlumata aydınlıq gətirilməsi məqsədilə Xarici İşlər Nazirliyi müvafiq olaraq İranın Azərbaycandakı səfirliyinə nota verib, dəfələrlə Tehrana çağırış edilib. Lakin çağırışlara məhəl qoyulmayıb. Tələbənin aqibəti ilə bağlı hansısa məlumat əldə etmək mümkün olmayıb.

**Güney Azərbaycandan olan milli fəal, araşdırmaçı-jurnalist Elyar Kamrani ”Şərq”ə açıqlamasında bildirib ki, İran hökuməti Fərid Səfərlinin harada olmasını çox yaxşı bilir, çünki onu hökumət özü girov götürüb. Ekspertin sözlərinə görə, İran başqa ölkənin vətəndaşlarını girov saxlamağı yaxşı bacarır:** ”İranın son dönəmdə Azərbaycana qarşı çirkin siyasəti hamıya bəllidir. O da məlumdur ki, Fərid Səfərli fevralın 20-də İrana səfər edib. İran rejimi öz çirkin əməllərini həyata keçirmək üçün azərbaycanlı tələbəni məqsədli şəkildə girov götürüb və bunu da gizli saxlayıb. Məqsəd rəsmi Bakıya təzyiq göstərməyi, hansısa tələblər irəli sürməyi planlayır. Eyni zamanda Azərbaycan vətəndaşlarında bir qorxu, xof yaratmağa çalışır. Yəqin ki, bir neçə gündən sonra bu əməlini ortaya çıxaracaq və müəyyən istəklər irəli sürəcək. Yəni tələbəmizin qaytarılması qarşılığında tələblər gündəmə gələcək. Ona görə də bu məsələni mümkün qədər beynəlxalq müstəviyə daşımaq lazımdır. Beynəlxalq qurumların diqqətinə çatdırmalıyıq ki, gəncimiz İrana səfər edib və onu oğurlayıblar. Siyasi və hüquqi yollarla İrana təzyiq göstərilməsinə nail olmalıyıq”.

“Məqsəd rəsmi Bakıya təzyiq göstərməyi, hansısa tələblər irəli sürməyi planlayır. Eyni zamanda Azərbaycan vətəndaşlarında bir qorxu, xof yaratmağa çalışır”

Milli fəal vurğulayıb ki, İrana təzyiqlər olmazsa, rejim öz əməllərinə davam edəcək: ”Aprelin 15-də İranda hökumətin təşkil etdiyi ”Qüds günü” aksiyalarında Azərbaycana qarşı fikirlər dilə gətirilib. ”Qüdsə gedən yol Bakıdan keçir” məzmunlu plakatlar qaldırılıb. Həmçinin, ölkə rəhbərliyi əleyhinə şüarlar səsləndirilib. Bütün bunlar göstərir ki, İranın Azərbaycan əleyhinə planları çoxdur. O baxımdan Fərid Səfərli məsələsində rəsmi Bakı, diplomatik nümayəndələrimiz daha ciddi addımlar atmalı, daha tələbkar olmalıdır. Gənc tələbənin ailəsini, yaxınlarını nigarançılıqdan qurtarmaq lazımdır”.

**İsmayıl Qocayev**

# Müharibə riski artır

## Çin Rusiya ilə strateji tərəfdaşlığı gücləndirməkdə və Tayvanı ələ keçirməkdə qərarlıdır



**”Böyük yeddilər”in (G7) xarici işlər nazirlərinin Yaponiyada toplantısı başa çatıb. Bundan sonra G7 ölkələrinin liderlərinin toplantısı olacaq. Liderlər 19-21 may tarixlərində Yaponiyanın Xirosima şəhərində görüşəcəklər.**

Yaponiya həmin sammitə Hindistan, Avstraliya, Braziliya, Cənubi Koreya və Vyetnamın liderlərini də dəvət edəcək. Xarici işlər nazirlərinin görüşündə iki əsas mövzu olub. Nazirlər Rusiyanın Ukraynaya qarşı işğalçı müharibəsini və Moskvaya qarşı sanksiyaların sərtləşdirilməsini və Çinin bölgədə artan hərbi gücünə qarşı birgə fəaliyyət mexanizmlərini müzakirə ediblər. Şimali Koreyanın raket proqramının bölgə ölkələri üçün təhlükə yaratması barədə də fikir mübadiləsi aparılıb. Yaponiyadakı toplantıda Fransa Prezidenti Emmanuel Makronun və Almaniyanın xarici işlər naziri Annalena Berbokun Çinə səfərinin nəticələri də müzakirə olunub.

**”Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu sosial şəbəkə hesabında bildirib ki, Çin Rusiya ilə strateji tərəfdaşlığı gücləndirməkdə və Tayvanı ələ keçirməkdə qərarlıdır. Analitik qeyd edib ki, Yaponiyada toplantı davam edərkən Çinin müdafiə naziri Moskvada rusiyalı həmkarı və Kreml sahibi ilə görüş keçirib:** ”Bu, Çinlə Rusiyanın G7 ölkələrinə mesajıdır ki, ”sizin birliyinizə qarşı bizim birliyimiz mövcuddur”. G7 toplantısına ev sahibliyi edən Yaponiya Rusiyaya qarşı ən sərt sanksiyaların qəbuluna tərəfdardır. Tokio Rusiyanın Kurl adaları ətrafında artan hərbi təlimlərini də özü üçün təhlükə kimi qiymətləndirir. Tokio Kiyevə maliyyə dəstəyini artıracağını bəyan edib. G7 xarici işlər nazirləri birgə bəyanatda Tayvanın status-kvosunun güc yolu ilə dəyişdirilməsinin əleyhinə olduqlarını bildiriblər. Birgə bəyanatda G7 ölkələrinin Çinin əsas rəqibi Hindistanla hərtərəfli əməkdaşlığa tərəfdar olduqları açıqlanıb. Bununla ”böyük yeddilər” Asiyada onların düşməni ilə dostunun kim olduğuna eyham vurublar”.

**Politoloq bəyan edib ki, G7 ölkələrinin xarici işlər nazirləri ”vahid Çin” siyasəti ilə bağlı mövqelərini dəyişməsələr də, Çin lideri Tsi Cinpinin ”Tayvanı nə yolla olursa-olsun Çinə birləşdirəcəyik” açıqlamalarından narahatdırlar:** ”G7 ölkələri Tayvan məsələsinin danışıqlar yolu ilə həllini istəyirlər. Pekin isə deyir ki, danışıqlar nəticə verməsə, hərbi yoldan istifadə edəcək. Məsələ burasındadır ki, Pekinlə Tayvan rəhbərliyi arasında danışıqlar da aparılmır. Bu isə müharibə riskini artırır. Almaniyanın xarici işlər naziri Annalena Berbok bildirib ki, ABŞ dövlət katibi Entoni Blinkenlə Çinin xarici işlər naziri Qin Qanq arasında planlanan görüş gərginliyi azalda bilər. Ancaq bu görüş dəfələrlə təxirə salınıb. Entoni Blinkenin fevral ayının əvvəlində Pekinə planlanan səfəri Çinin kəşfiyyat şarlarının ABŞ səmasında vurulmasından sonra təxirə salınıb”.

**İsmayıl**



# Saakaşvili artıq "skeletə" çevrilib

## Keçmiş prezidentin həbsdən azad edilməsi ancaq müxalifətin hakimiyyətə gəlməsi ilə mümkündür

**Hazırda həbsdə olan Gürcüstanın keçmiş prezidenti Mixail Saakaşvilinin səhhəti ilə bağlı vəziyyət kritik olaraq qalmaqdadır. Son günlər vəziyyətinin daha da pisləşdiyi deyilir. Saakaşvilinin anası Qiuli Alasaniya bildirib ki, oğlu ”skeletə” çevrilib:**

”Ayağa qalxanda isə onurğası 100 yaşlı kişi kimi tamamilə əyilir. O, çətinliklə harasa söykənərək sürünür”. Onun sözlərinə görə, oğlu yemək qəbul edir, lakin onun ”orqanizmi qidanı uda bilmir”. Gürcüstanın keçmiş prezidentinin qardaşı David Saakaşvili bir müddət əvvəl bildirib ki, siyasətçi, həqiqətən də, hər an ölə bilər. Onun fikrincə, Saakaşvilini yalnız ixtisaslaşmış xəstəxanaya köçürmək xilas edə bilər. Saakaşvili özü də həbsdə olarkən səhhətinin ”kəskin şəkildə pisləşdiyini” və indi ”ölmək üzrə olduğunu” deyib. Xatırladaq ki, Saakaşvili ona qarşı bir sıra cinayət işlərinin olmasına baxmayaraq, 2021-ci ilin oktyabrında vətəninə qayıdıb. Nəticədə Gürcüstanın eks-prezidenti saxlanılaraq həbs edilib. Saakaşvili özü həbsini siyasiləşmiş adlandırıb və aclıq aksiyasına başlayıb. Daha sonra eks-prezidentin səhhəti ciddi şəkildə pisləşib.

**Mixail Saakaşvilinin mövcud durumunu ”Şərq”ə dəyərləndirən politoloq Azər Niftiyev deyib ki, sabiq prezidentin səhhətinin pisləşməsi və gürcü hökumətinin ona qarşı qəddar davranışı bilavasitə Rusiya ilə əlaqəlidir. Analitik xatırladıb ki, 2003-cü ilin payız aylarında Qərb-Rusiya savaşının ilk təzahürləri Mixail Saakaşvilinin ”məxməri inqilabi” ilə formalaşmışdı:** ”Bu proses keçmiş Prezident E.Şevardnadzenin getməsi və Saakaşvilinin hakimiyyətə gəlməsi ilə nəticələndi. Qısa müddət sonra Ukraynada V.Yanukoviçi V.Yuşşenko əvəzlədi. Rusiyanın nəzarətində olan ölkələrlə Moskva arasında ziddiyyət yarandı. Həmin ölkələrdə rusyönlü qüvvələrin hakimiyyəti sona çatmış oldu. Bir müddət sonra Yanukoviçi yenidən hakimiyyətə qaytarsalar da, formalaşmış demokratiyanı geri çəkə bilmədilər. Məhz bunun nəticəsidir ki, Rusiya özündən kiçik Ukrayna ilə müharibədə məğlubiyyətin bir addımlığındadır. Rusiya eyniylə Gürcüstanla da müharibə etmişdi. Kreml Yanukoviç senarisini Gürcüstanda da təkrarladı. Hazırda qonşu Gürcüstanda iqtidardan olanlar Rusiyaya bağlı qüvvədir. Ona görə də eks-prezident M.Saakaşviliyə hədsiz nifrətləri var. Bu nifrətin kökündə isə Saakaşvilinin postsovet məkanında ilk inqilab edən lider kimi tarixə düşməsi dayanır. Keçmiş prezidentin qeyri-rəsmi yollarla Tbilisidə peyda olması gürcü iqtidarının əlinə fürsət vermiş oldu. Ona görə də bacardıqları qədər Saakaşvilini əzməyə, ona təzyiq göstərməyə çalışır. Düşünürəm ki, ona qarşı təzyiqlər davam edəcək”.

*A.Niftiyev düşünür ki, Saakaşvilinin həbsdən azad edilməsi ancaq müxalifətin hakimiyyətə gəlməsi ilə mümkündür:* ”Hökumət görsə ki, sabiq prezident həqiqətən son günlərini yaşayır, çox güman onu azadlığa buraxacaq. Lakin o zaman Saakaşvilinin azadlığa çıxmasının mənası qalmayacaq. Əlbəttə, unutmaq olmaz ki, Saakaşvili Gürcüstanın inkişafında, demokratik sistemin oturuşmasında, korrupsiyanın aradan qaldırılmasında, köklü islahatlarda böyük rol oynamış bir siyasətçi idi. Qərbə bağlı olsa da, regional siyasəti düzgün tənzimləməyi bacarırdı. Azərbaycanla da münasibətlərdə çox səmimi idi. Ümid edirik, Gürcüstan hökuməti Saakaşvilinin həbsdən azad edilməsi ilə bağlı qərarı çox gecikdirməyəcək”.

**İsmayıl Qocayev**

# Mahal İsmayıloğlu Paşinyanı yumruqlayıb

## O zaman Nikol "Haykakan Jamanak" qəzetində çalışırdı



Eldar Sabiroğlu

**İnformasiya mübarizəsi elə bir ciddi və həssas vasitədir ki, onunla gərək doğru-düzgün davranmağı bacarasan. Bunu edə bildinsə, uduş səninkidir. Prosesləri dürüst analiz edib nəticələri hədəfə yönləndirərkən buraxılan adi səhv bütün arzu və məqsədləri, hətta ehtimalları bir dəqiqənin içərisində tamamilə alt-üst etmək gücünə sahibdir. Odur ki, informasiya döyüşünün plan və trayektoriyasını qurarkən son dərəcə diqqətlilik və uzaqgörənlik tələb edilir. Bu vacib və taleyüklü məsələdə nə tələsmək, nə də gecikmək olar. Hər şey ölçülüb biçildikdən sonra ölkən, xalqın və dövlətin xeyrinə düyməni sıxır və qələbəni götürürsən.**

44 günlük Vətən savaşı zamanı mən bunun konkret nəticələrini Azərbaycan Prezidenti hörmətli İlham Əliyevin və Ermənistan hökumətinin rəhbəri Nikol Paşinyanın simasında yaxından müşahidə etdim. 30 ildir ki, iki respublika arasında leqal və ya qeyri-leqal müharibə gedir. Çalışdığım qəzetdə nə təhqirə layiq olan işğalçı Ermənistan rəhbərini topa-tüfəngə tutmağı, nə də bu müharibədə öz siyasi mədəniyyəti və qətiyyəti ilə sözün əsl mənasında nümunəvi dövlət rəhbəri simasını ən çətin anlarda belə itirməyən Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevi özümünküdü deyə yersiz şəkildə tərifləməyi planlaşdırmıram. Sadəcə, 45 illik informasiya təcrübəmdən faydalanaraq hansının daha güclü və daha zəkalı olduğunu heç bir mənfəət axtarışına qapılmadan, qısa da olsa, dəyərləndirmək istəyidir. Bununla həm də beynəlxalq ictimai rəyin dövlət rəhbəri olaraq hansının xeyrinə işlədiyini qəzəbdən uzaq, nifrətdən kənar araşdırmaqdan və nəhayət, İlham Əliyevin və Nikol Paşinyanın dünya masştabında yeri və əhəmiyyəti barədə düşündüklərimi bölüşməkdən ibarətdir. Doğrusu, lütfükar oxucumun belə bir müqayisəli mövzunu gündəmə gətirdiyimə görə mənimlə razılaşmayacağını bəri başdan bilirəm və xarektercə xarabçılıqda ad çıxarmış Nikolla dövlət rəhbərim İlham Əliyevin adlarının yanaşı çəkilməsini xalqımın istəmədiyini də çox gözəl anlayıram. Tam şərikəm, amma neyləməli ki, belə maymaq prezidenti Allahın köməkliyi ilə Azərbaycan prezidenti əhliləşdirə biləcəkdir. Çünki başqa yol görünmür. Nikolun beynəlxalq birliyə sırımaq istədiyi yalan informasiyalar, bir-birinə zidd məlumatları artıq ermənilər özləri qəbul etmirlər. Axı nə qədər basıb-bağlamaq, yalnız suya üfürmək olar!? İndi onu öz həmyerliləri DEZO-yəni dezinformasiya kralı deyə çağırırlar. 44 günlük müharibə zamanı dünya ictimaiyyətinin axtardığı və maraq dairəsinə daxil etdiyi xoşniyyətli təşəbbüslərin, savaşın dayandırılması istiqamətində atılmış siyasi addımlar haqda xəbərlərin qarşısı demək olar ki, bütün vasitələrlə kəsilirdi. İlham Əliyev müharibəni udsa da, ilk gündən sülhə gəlmək, danışıqlar masasına oturub problemi dinc yolla həll etməkdən özgə yol yoxdur. Qalib ölkənin rəhbəri demək olar ki, hər gün dünyanın müxtəlif agentliklərinə müsahibələr verir, məğlub ölkənin rəhbərini sülhə çağıraraq qan tökülməsinin önünü alacaq tədbirlərlə razılaşmağa səsləyir, adamın isə dünya vecinə deyil. Yalan məlumatlarla, DEZO-yla dünyanı da çaşdırırdı. Sonda isə hər şey bəlli oldu. Nikol Moskvada gecə saatlarında kapitulyasiya aktına imza atmalı oldu. "Gizlində" saxladığım bir "sirr" haqda ilk dəfədir yazıram. Mən bu Nikolu İrəvanda yaşayıb işlədiyim vaxtlarımdan tanıyırdım. Çox alçaq xasiyyəti vardı. Utanmazcasına Mətbuat Evinin yeməkxanasında demək olar ki, hər gün qalmaqal salar, Azərbaycan xalqını pis-pis söyüşlərə məruz qoyardı. Günün birində də xəbər gəldi ki, "Sovet Ermənistanı" qəzetində mənim rəhbərlik etdiyim şöbədə müxbir kimi fəaliyyət göstərən Mahal İsmayıloğlunu ermənilər təhqir ediblər. Təşkil edən də bu Nikol olubmuş. Gözünə döndüyüm Mahal abi də eləməyib tənbəllik, bir-iki yumruğa bunu salıb yerə... Bu o zaman idi ki, səhv etmirəmsə, N.Paşinyan "Haykakan Jamanak" qəzetində çalışırdı. Yəni ki, "Erməni zamanı" qəzeti...Tamam daşnak ruhlu bir qəzet idi!!! Hərdən baxıram, heç dəyişməyib, hələ bir az da artırıb... Azərbaycan-Türkiyə haqda ən yaramaz yalanları yenə ictimailəşdirir.



**"Azərbaycan Hərbi Hava Qüvvələrinin komandanının ABŞ səfəri və Pentaqonda keçirdiyi görüşlər iki dövlət arasında hərbi əməkdaşlıq müstəvisində yeni imkanlar açır". Bu barədə politoloq Məhəmməd Əsədullazadə deyib. Analitik bildirib ki, ABŞ İkinci Qarabağ müharibəsindən sonra Cənubi Qafqazda yaranmış reallığı qəbul edərək, bu istiqamətdə Azərbaycanla hərbi**

# Vaşinqton Bakını müdafiə edəcək

## Strateji hədəf Ermənistan və Azərbaycan arasında sülh müqaviləsinin bağlanmasına nail olmaqdır

**əməkdaşlığın inkişaf etdirilməsi strategiyasını ortaya qoyub:**

"ABŞ-nin Azərbaycanı kəşfiyyat və müasir hərbi avadanlıqlarla təchiz etməsi mümkündür. Amerika dövlət xadimlərinin hər həftə Azərbaycan rəsmiləri ilə telefon əlaqələrinə əsaslansaq, deyə bilərik ki, Vaşinqton Azərbaycanı İranla münasibətlərdə müdafiə etmək xəttini götürüb. Generalların görüşündə Bakıya hərbi dəstəyin göstərilməsi, xüsusilə havadan müdafiə sisteminin təkmilləşdirilməsi məsələlərinin razılaşmdırılması da istisna deyil. Nəzərə alaq ki, İsrail Azərbaycanla hərbi texniki və müdafiə sahəsində əməkdaşlığını ABŞ ilə sinxron həyata keçirir. İsrail müdafiə nazirinin Bakıya səfərində bu məsələlər razılaşdırılıb. İsrailin xarici işlər nazirinin də Azərbaycana səfəri gözlənilir. Göründüyü kimi, ABŞ-Azərbaycan-İsrail üçtərəfli əməkdaşlıq formatı yaradılır".

Ekspertin fikrincə, Vaşinqtonun bölgəylə bağlı strateji hədəfi Ermənistan və Azərbaycan arasında sülh müqaviləsinin bağlanmasına nail olmaqdır: "Bu xüsusda ABŞ-nin Ermənistana təzyiq etməsi, regionda dəyişən geosiyasi nizamda Tehranın İrəvanla əməkdaşlığının qarşısını alması mümkündür. İranın siyasəti ABŞ-nin Cənubi Qafqaz siyasətini təhdid edir. ABŞ və İsraillə ölkəmizin üçtərəfli əməkdaşlığı isə Azərbaycanın təhlükəsizlik imkanlarını gücləndirir".

*Qeyd edək ki, Hərbi Hava Qüvvələrinin Komandanı, general-leytenant Ramiz Tahirov Amerika Birləşmiş Ştatlarına səfər edib. Səfər çərçivəsində general-leytenant R.Tahirov ABŞ Hərbi Hava Qüvvələrinin komandanı ordu-generalı Çarlis Braun ilə görüşüb. Tərəflər hərbi əməkdaşlığın cari vəziyyəti və regional təhlükəsizlik məsələlərinə dair ətraflı fikir mübadiləsi aparıblar.*

**İsmayıl**

# 30 il ötür

## Başlıbel faciəsi heç vaxt unudulmayacaq

**Qarabağ müharibəsi tarixində elə hadisələr var ki, haqqında ya çox söz açılıb, ya da ondan heç bəhs olunmayıb. 1993-cü ilin aprelində erməni hərbi birləşmələrinin əsarətinə keçən Kəlbəcər rayonunun Başlıbel kəndində baş verənlər də həmin hadisələrdəndir. Bu cinayət nəticəsində içərisində uşaqların, qadınların, əlilliyi olan şəxslərin, ahılların da olduğu kənd əhalisi işgəncələrə məruz qalmaqla kütləvi şəkildə qətlə yetirilib, hətta bəziləri diri-diri yandırılıb.**

Aprelin 18-də ermənilərin xalqımıza qarşı törətdiyi qətliamdan 30 il ötüb. Azərbaycan Xarici İşlər Nazirliyinin tviterində edilən paylaşımda

Ermənistanın Azərbaycana qarşı etnik təmizləmə və nifrət siyasətinin növbəti təzahürü olan Başlıbel qətliamının 30-cu ildönümündə 21 qurbanın xatirəsinin yad edildiyi bildirilib: "Regionda davamlı sülhün bərqərar olması üçün cəzasızlığa son qoyulmasının vacibliyini bir daha bildiririk".

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Başlıbel qətliamının 30-cu ildönümü ilə bağlı beynəlxalq ictimaiyyətə müraciət edib: "İnsanlıq əleyhinə yönəlmiş bu qanlı soyqırımı cinayəti nəticəsində içərisində uşaqların, qadınların, əlilliyi olan şəxslərin, ahılların da olduğu kənd əhalisi müxtəlif ağır işgəncələrə məruz qalmaqla kütləvi şəkildə qətlə yetirilib, hətta bəziləri diri-diri yandırılıb. Eyni zamanda kənd sakinləri arasında girov götürülənlər də olub və bugünədək itkin düşmüş hesab olunan həmin şəxslərin taleyi barədə heç bir məlumat yoxdur. Bir daha dünya ictimaiyyətinə müraciət edərək, dinc azərbaycanlılara qarşı çoxsaylı cinayət əməllərini, o cümlədən Başlıbel qətliamını törətməklə fundamental insan hüquqlarının kobud şəkildə pozulmasında təqsirkar olan Ermənistan tərəfinin tezliklə beynəlxalq hüquqi məsuliyyətə cəlb edilməsi ilə bağlı qəti addımların atılmasını tələb edirik".

**Başlıbel faciəsi ilə bağlı "Şərq"ə danışan Regional İnsan Hüquqları və Media Mərkəzinin sədri Xalid Kazımov deyib ki, Ermənistan zaman-zaman xalqımıza qarşı soyqırımı cinayətləri törədib. Təkcə son bir əsrdə ermənilərin xalqımıza qarşı Bakıda, Qubada, Zəngəzurda, Xocalıda, Qaradağlıda, Ağdabanda, Başlıbeldə, Ballıqayada törətdiyi qətliamları xatırlamaq bu hadisələrin ağırlığını təsəvvür etmək üçün yetərli olar:**

"1993-cü ilin aprelində Kəlbəcər rayonunun işğalı zamanı doğma torpaqlarını tərk etməyən 62 nəfər Başlıbel sakini (əlavə olaraq Başlıbelə pənah gətirən 4 nəfər Laçın rayon sakini və mühasirəyə düşən 9 nəfər əsgər) dağlara sığınıblar. Amma Ermənistanın başıpozuq hərbi birləşmələrinə girov düşməmək üçün dağlara sığınan qoca, qadın, uşaqlar cəmi 17 gün gizlində qala biliblər. 1993-cü il aprelin 18-də erməni quldurları qadın, uşaq və yaşlıların gizləndiyi yeri aşkarlayıblar.

Həmin gün Başlıbel kəndinin 12 nəfər sakini Portda kahalarında qətlə yetiriliblər. 63 yaşlı Səmədov Yaqub İsa oğlu, 60 yaşlı Əmralıyev Məhəmməd Abış oğlu, onun oğlu 29 yaşlı Əmralıyev Surxay Məhəmməd oğlu, 21 yaşlı Əmralıyev Çingiz Məhəmməd oğlu, qızı 16 yaşlı Əmralıyeva Aygün Məhəmməd qızı 18 apreldə öldürülüblər.

Həmin gün mağarada 67 yaşlı Həsənova Çiçək Mikayıl qızı da güllələnib. Kənd sakinləri 68 yaşlı Cəfərova Gülara Cəfər qızı, 95 yaşlı Cəfərova Gülgəz Qədim qızı 1993-cü il aprelin 18-də mağaradan girov götürülən şəxslərin arasında olub. Amma naməlum şəraitdə mağaraya yaxın ərazidə qətlə yetirilib.

Başlıbel kənd sakini 54 yaşlı Əhmədova Büsat Əliş qızı və onun 12 yaşlı qızı Əhmədova Zövqiyyə Binnət qızı 1993-cü il aprelin 18-də kahalarda güllələnib.

Erməni quldurları Laçın rayonunda girovluqdan qaçmağı bacarıb Başlıbelə sığınan 52 yaşlı Əsgərov Əhliman Əvəz oğluunu da 1993-cü il aprelin 18-də Başlıbel kəndində qətlə yetiriblər".

X.Kazımovun sözlərinə görə, Başlıbel kəndində mühasirəyə düşən mülki insanların müdafiəsini təmin etməyə çalışan əslən Zərdab rayonundan olan 22 yaşlı Abdullayev Vüqar İsa oğlu da qətlə yetirilib. Vüqar Başlıbel sakinlərini erməni quldurlarından müdafiə edərkən son nəfəsinədək döyüşüb. Gülləsi tükəndikdən sonra belə Vüqarın olduğu kahaya yaxınlaşa bilməyən ermənilərin atdığı qumbara onun həyatına son qoyub.

19 nəfər kənd sakini (qadın, uşaq və qoca) isə Ermənistan hərbçiləri tərəfindən girov götürülüb. 18 aprel 1993-cü ildə isə aralarında 2 nəfər azyaşlı uşaq, 4 nəfər qadın, 6 nəfər kişi (4 nəfəri ahıl yaşda) düşməndən gizləndikləri mağarada güllələniblər. Həmin gün 9 nəfər qadın, 2 nəfər azyaşlı uşaq, 3 nəfər ahıl girov götürülüb. 5 nəfər Başlıbel sakini isə Kəlbəcər rayonunun müxtəlif ərazilərində girov götürülüblər. 18 aprel qətliamından sonra düşmən gülləsindən canını qurtara bilən 30 nəfər isə yenidən dağlara çəkiliblər. Onların mühasirə həyatı iyul ayınadək davam edib. Mühasirədən çıxaraq dörd sutka piyada yol qət edən 29 nəfər 1993-cü il iyulun 22-də Daşkəsən ərazisinə keçə biliblər. Amma 1 nəfər - I və II Dünya müharibəsi iştirakçısı Ələsgər Kazımov doğma torpağını tərk etməyərək Başlıbeldə qalıb. Ələsgər Kazımov bugünədək itkin sayılır və onun barəsində hər hansı bir məlumat yoxdur".

Mərkəz sədri deyib ki, 2020-ci il sentyabrın 27-də başlanılan 44 günlük Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi ilə rəşadətli Azərbaycan Ordusu ölkəmizin ərazi bütövlüyünü təmin edərək Başlıbel kəndini işğaldan azad etdi. İşğaldan azad olunmasından sonra Başlıbel kəndində kütləvi qətliam zamanı qətlə yetirilən 12 nəfərin cəsədi 2021-ci il aprelin 24-də ekskumasiya olunaraq Bakıya - Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinə gətirildi və müvafiq istintaq hərəkətləri aparıldı: "Faciə qurbanlarının meyit qalıqlarından və həmin şəxslərin ailə üzvlərindən götürülmüş DNT analizlərinin, molekulyar-genetik və digər xüsusatların araşdırılması üçün tibbi-kriminalistik ekspertizaların nəticələri onların erməni hərbçiləri tərəfindən güllələnərək qətlə yetirildiyini təsdiqləyir. Faciə qurbanları 2021-ci ilin sentyabrın 3-də mühasirədə qalan kənd sakinlərinin dəfn etdikləri ərazidə torpağa tapşırıldılar.

Qətlə yetirildiyi şahid ifadələri ilə təsdiqlənən 27 nəfər dinc Başlıbel sakinindən 14 nəfərin meyitinin qalıqları bugünədək tapılmayıb. Həmçinin işğaldan sonra Başlıbel kəndinə səfər edən hüquq-mühafizə orqanlarının əməkdaşlarının səfəri zamanı kəndin tarixi-mədəni abidələrinin, o cümlədən XVII əsrin yadigarı olan məscidin dağıdılması müəyyən olunub. Kəndin qəbiristanlığı erməni vandalları tərəfindən dağıdılıb, məzarların içərisi dağıdılaraq cəsədlərin üzərində olan qiymətli metallar qarət edilib. Mən burada Başlıbel qətliamı qurbanlarının yaşlarını təsadüfən xatırlatmadım. Bir daha qeyd etmək istərdim ki, Ermənistanın törətdiyi müharibə cinayəti qurbanlarının əksəriyyətinin yaşı 60-dan yuxarı olub. 18 aprel qətliamı qurbanları isə 2 nəfər azyaşlı uşaq, 4 nəfər qadın, 6 nəfər kişi olub ki, onlardan da 4 nəfəri ahıl yaşda olub. Ermənilərin Başlıbeldə törətdikləri müharibə cinayəti zamanı həm mülki əhaliyə, həm də mülki infrastruktur obyektlərinə hücumlar olub. Belə ki, dördüncü Cenevrə Konvensiyası - "Müharibə zamanı mülki şəxslərin müdafiəsi haqqında" sənəd bu cür hücumları qəti qadağan edir. "Beynəlxalq silahlı münaqişələrin qurbanlarının müdafiəsinə dair" I saylı Əlavə Protokolun 51-ci maddəsinin 2-ci hissəsinə əsasən, mülki əhali və ayrı-ayrı mülki şəxslər hücum obyekti ola bilməz. Həmin Protokolun 85-ci maddəsinin 2-ci hissəsinin "a" bəndi mülki əhalinin və ayrı-ayrı mülki şəxslərin hücum obyektinə çevrilməsini qadağan edir və bu cür əməllər müharibə cinayəti kimi qiymətləndirilir.

Onu da qeyd edim ki, Ermənistan hərbi birləşmələri tərəfindən Başlıbel sakinlərinin qətlə yetirilərək kütləvi şəkildə dəfn edilməsi faktı mövcuddur ki, bu da Üçüncü Cenevrə Konvensiyasının 120-ci, Dördüncü Cenevrə Konvensiyasının 130-cu maddələrinin tələblərinin pozuntusudur. Həmin beynəlxalq sənəd əsirlikdə vəfat etmiş şəxslərin şərəflə, mümkün olduğu halda öz dini adətlərinə uyğun və qarşısıalınmaz hallar olmadığı təqdirdə fərdi məzarlarda dəfn edilməsini tələb edir. Amma Ermənistanın törətdiyi Başlıbel qətliamı bütün bu beynəlxalq hüquq normalarının tələblərinin kobud şəkildə pozulduğunu göstərir.

44 günlük Vətən müharibəsi zamanı Ali Baş Komandanın sərkərdəliyi ilə Azərbaycan Ordusu Ermənistanın hərbi birləşmələrinin xalqımıza qarşı törətdiyi soyqırımı cinayətlərinin cəzasını döyüş meydanında verdi. Azərbaycan bu gün diplomatiya cəbhəsində də Ermənistanı 90-cı illərdən bəri xalqımıza qarşı törətdikləri əməllərə görə cavab verməyə məcbur edir. İnanıram ki, Başlıbel qətliamının törədilməsində rolu olan Ermənistanın ozamankı hərbi-siyasi rəhbərliyində təmsil olunanlar və icraçılar ən qısa zamanda bu müharibə cinayətinə görə də ədalət mühakiməsi qarşısında cavab verəcək".

Başlıbel faciəsinin ölkə və dünya ictimaiyyətinə çatdırılması ilə bağlı görülən tədbirlərə gəldikdə isə X.Kazımov deyib ki, hələ 90-cı illərdə Başlıbeldən olan ziyalıların qətliamla bağlı yerli mətbuatda məqalələri dərc olunub və bir neçə kitab çap olunub. Hadisənin birbaşa iştirakçısı olan Ələkbər Sönməz poema yazmışdı. Ümumiyyətlə, ötən illər ərzində də mütəmadi olaraq əslən Başlıbeldən olan jurnalistlərin faciə ilə bağlı məqələləri, araşdırmaları dərc olunub. Amma qətliamla bağlı ilk sənədli kitab 2013-cü ildə rəhbərlik etdiyim Regional İnsan Hüquqları və Media Mərkəzi tərəfindən dərc edilib. Başlıbel faciəsi: erməni vəhşilikləri şahidlərin dili ilə" adlı kitab Azərbaycan və ingilis dillərində çap olunub. Kitab Azərbaycan Xarici İşlər Nazirliyi və Diaspor Komitəsinin xətti ilə xaricdə yayıldı.

**Torpaqlarımız azad olunandan sonra Başlıbel faciəsinə diqqətin daha da artırıldığını vurğulayan X.Kazımov qeyd edib ki, bu ərəfədə jurnalist Elxan Salahovun "Qanlı Kaha" sənədli-publisistik povesti işıq üzü gördü və ictimaiyyət daha geniş məlumatlandırıldı:**

"Başlıbel kəndi ordumuzun nəzarətində olduğundan son 3 ildə yerli ictimaiyyət arasında Başlıbel faciəsinə diqqət artırılıb. Prezident İlham Əliyev 2021-ci ilin sentyabrında BMT Baş Assambleyasının 76-cı sessiyasının illik ümumi müzakirələrində çıxışı zamanı Başlıbel qırğınını xüsusi vurğulamaqla Birinci Qarabağ müharibəsində Ermənistanın Qarabağda törətdikləri insanlıq əleyhinə cinayətlərdən bəhs edib. Həmçinin dövlətimizin başçısı hərbi əməliyyatlar zamanı əsir götürülmüş insanların naməlum aqibəti, məhv edilmiş soydaşlarımızın gizlədildikləri məzarlıqlar məsələsini vurğulayıb. Biz də Başlıbel sakinləri olaraq 3 ildir oradakı şəhidlərimizin məzarlarını ziyarət edirik.

"Başlıbelin İnkişafına Dəstək" İctimai Birliyi adlı Qeyri-Hökumət Təşkilatı yaradılıb. Təşkilatın məqsədi yerli və dünya ictimaiyyətinin diqqətini faciəyə yönəltməkdir. İctimai Birlik tərəfindən qarşıdakı aylarda ölkə ərazisində və xarici ölkələrdə Başlıbel faciəsi ilə bağlı tədbirlərin keçirilməsinə dair tədbirlər planı hazırlanıb hökumətə və QHT-yə Dövlət Dəstəyi Agentliyi təqdim olunub.

Hadisənin günahkarlarının tam olaraq müəyyən edilib cəzalandırılmasına qədər mübarizə aparılmalıdır. Başlıbel faciəsi qurbanlarının qətlə yetirildiyi ərazidəki faktlara əsaslanaraq erməni vandalizmini dünya ictimaiyyətinə çatdırmalıyıq".



***Qətlə yetirildiyi şahid ifadələri ilə təsdiqlənən 27 nəfər dinc Başlıbel sakinindən 14 nəfərin meyitinin qalıqları bugünədək tapılmayıb***

**Şəymən**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Ekologiya və ətraf mühitin mühafizəsi



# Ekologiyanı gözləyən bəla

## İqlim dəyişiklikləri su və meşə resurslarına, insan sağlamlığına ciddi təsir göstərməkdədir

**Dünyanı narahat edən qlobal ekoloji problemlərdən biri də iqlim dəyişmələridir. İqlim dəyişiklikləri və onların canlı aləmə təsiri çox ciddi narahatlıq doğurur. Qlobal iqlim dəyişikliyi Yer kürəsinin hər bir hissəsinə öz təsirini göstərməkdədir. Dəniz səviyyəsinin qalxması, temperatur səviyyəsinin artması, torpaqların deqredasiyasında müşahidə olunan kəskin dəyişikliklər və digər təbii fəlakətlər bunun bariz göstəricisidir.**

Ekoloqlar hesab edirlər ki, iqlim dəyişmələri yağıntıların qeyri-normal şəkildə paylanması, fəsillərin sürüşməsi və davamlılığının artması, su və meşə resurslarına, insan sağlamlığına təsirlərlə özünü göstərir. Bunun nəticəsində ekoloji tarazlıq pozulur, bu, insanla ətraf mühitin, meşə təsərrüfatı ilə kənd təsərrüfatının, su resursları ilə torpağın qarşılıqlı əlaqələrinə təsir edir. Proqnozlara görə, ekoloji çirklənmənin qarşısı alınmazsa, bu proses daha da dərinləşəcək.

Qlobal iqlim dəyişikliyi Yer kürəsində ekoloji tarazlığın və enerji balansının pozulmasına səbəb olur ki, bu da ətraf mühitə təsirsiz ötüşmür. Alimlərin fikrincə, Günəşdən Yer kürəsinə nə qədər enerji daxil olursa, bir o qədər də enerji planetimizin səthindən qayıtmalıdır. Əgər enerji qayıtmırsa, bu, ekoloji balansın açıq-aşkar pozulduğunu göstərir.

Qeyd edək ki, İqlim Dəyişmələri üzrə Hökumətlərarası Ekspertlər qrupunun son qiymətləndirmə hesabatına görə, son 100 ildə Yer kürəsində orta temperatur 0,8 dərəcə artıb. Temperaturun artmasının antropogen amillərlə bağlı olduğu deyilir, bunun əsasını isə istilik effekti yaradan qazlar təşkil edir.

Son 100 illik kosmik müşahidələr göstərir ki, tufan, çovğunların həm intensivliyi, həm də tezliyi artıb. İsti külək, qasırğa, yağıntılar güclənib, eyni zamanda sel, daşqın hadisələrinin də sayı artıb.

Azərbaycanda da son illər orta illik temperatur 0,4-1,30 dərəcəyədək artıb. Temperatur artımı regionlardan asılı olaraq qeyri-bərabər paylanır.

İqlim dəyişikliyi, resursların tükənməsi və ətraf mühitin deqradasiyası ilə bağlı artan təhdidləri nəzərə alaraq, bir çox ekspertlər və siyasətçilər daha dayanıqlı və ədalətli qlobal sistemə keçməyə çağırıblar. Bu, qalıq yanacaqlardan asılılığın azaldılmasını və bərpa olunan enerji mənbələrinə keçidi, dayanıqlı kənd təsərrüfatı və meşə təsərrüfatı təcrübələrini təşviq etməyi və plastik tullantılar, hava və suyun çirklənməsi kimi problemlərin həllini əhatə edə bilər.

**Dünən İqlim Dəyişikliyinin Təsirinin Azaldılması və Uyğunlaşma Tədbirləri üzrə Məktəb Simpoziumunda çıxış edən Ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev deyib ki, iqlim dəyişikliklərinin Azərbaycana təsirlərini azaltmaq və ona uyğunlaşmaq üçün təxirəsalınmaz tədbirlər görməliyik.**

Nazir bildirib ki, bu gün dünyanın üzləşdiyi ən aktual problemlərdən biri iqlim dəyişikliyidir: "Bu, təkcə ətraf mühitə deyil, həm də bütövlükdə iqtisadiyyata və cəmiyyətə təsir göstərir. Elmi araşdırmalar göstərir ki, artıq qlobal istiləşmənin təsirlərini daha tez-tez və intensiv şəkildə baş verən təbii fəlakətlər, dəniz səviyyəsinin dəyişməsi və anomal hava şəraiti ilə müşahidə edirik. Bu çağırış qarşısında özümüz və planetimiz üçün daha dayanıqlı gələcək qurmaq üçün kifayət qədər imkanlarımız var".

M.Babayev vurğulayıb ki, bu xüsusda iqlim dəyişikliyi ilə bağlı aktual problemlərin həllində maraqlı olan bu qədər şagirdi bir arada görmək sevindirici haldır: "Siz bu məsələdə daha həssassınız və gələcək nəsillərin ekoloji problemlərlə mübarizəsində mühüm qüvvəni təşkil edirsiz. Enerjinizi, yaradıcılığınızı və innovativ ideyalarınızı bu səylərə cəlb etməyiniz çox vacibdir. Öz həyat tərzinizdə davamlılıq prinsipinə uyğun hərəkət etmək və başqalarını buna təşviq etmək iqlim dəyişikliyi ilə bağlı problemlərin həllində ən vacib addımlardan biri olacaq. Düşünürəm ki, ekoloji fəallıq tək bir aksiya ilə bitməli deyil, dayanıqlı və məsuliyyətli bir fəaliyyətə çevrilməlidir".

"MüstəqilAzərbaycanın qurucusu, Azərbaycan xalqının və dövlətçiliyinin inkişafında misilsiz xidmətləri olan əbədiyaşar Ulu Öndərin fəaliyyəti dövründə ölkədəki ekoloji vəziyyət həmişə xüsusi diqqət mərkəzində olub, ətraf mühitin mühafizəsi ilə bağlı müəyyən olunmuş prioritetlər üzrə mühüm tədbirlər görülüb. Heydər Əliyevin uzaqgörən siyasəti, o cümlədən gənc mütəxəssislərin yetişdirilməsi, ekologiya sahəsində verdiyi tövsiyələr bu gün də görülən işlərdə rəhbər tutulmaqdadır", - nazir əlavə edib.

**"Biosfer" İctimai Birliyinin sədri Qorxmaz İbrahimli isə "Şərq"ə açıqlamasında deyib ki, iqlim dəyişikliyi nə qədər sürətli olsa da, bəşəriyyəti yaxın on ildə ciddi bir dəyişiklik gözləmir. Alimlərin həyəcan təbili isə yaxın beş yüz il üçün gözlənilən dəyişikliklərlə bağlıdır:** "Yaxın onilliklərdə havanın hərarətinin orta illik durumunun sabit qalacağı, hətta qlobal soyuma və yaxud yağıntıların artması da müşahidə edilə bilər. Xüsusən son iyirmi ilin müşahidələri göstərir ki, quraqlıqların ardından yağıntıların artımı daha çox gözənilən haldır. Dünyanın bir tərəfində quraqlıqdan əziyyət çəkildiyi kimi, digər tərəflərində yağıntıların anomal düşməsi ilə subasma kimi fəlakətlər baş verə bilər. Bu çağın tələbi isə hər bir fərdin iqlim dəyişikliklərindən xəbərdar olmasıdır. Yaxın on ildə qeyd edilən problemlərin qarşısının alınması üçün ciddi maarifləndirmə işləri aparılmalıdır.

*Azərbaycanda alternativ enerji mənbələrinə keçid və onların tətbiqi sevindirici haldır. Külək və günəş enerjisindən istifadə iqlim dəyişikliyinin qarşısının alınmasında ən mühüm addımdır*

İqlim dəyişikliyinin ölkəmizdəki təsirinə gəldikdə isə on il əvvəlki vəziyyəti analiz edərək bir çox nəticələrə gəlmək olar. Azərbaycan taranssərhəd su ehtiyatlarından asılı ölkələrdən olduğundan xüsusən son on ilin quraqlığını ciddi şəkildə hiss etməkdədir. Cari il ərzində ölkə üzrə qar yağıntısının az olması nəticəsində dağlarda akkumlyativ su ehtiyatının yaranmaması yay və payız fəslində bir çox bölgələrdə su qıtlığına, bəzi ərazilərdə isə bulaqların qurumasına səbəb olub.

Özəlliklə qışda qarın az yağması Azərbaycanda buzlaqların sahəsinin kiçilməsinə gətirib çıxarıb. Nəticədə mülayim qurşağın quru hava tipi zonasında yerləşən ölkəmizdə səhralaşmanın artması, dağ çaylarının sululuq rejiminin dəyişilməsi müşahidə olunur. Bu, gələcəkdə ciddi şəkildə su qıtlığı ilə üzləşməyə gətirib çıxara bilər. Bu səbəblə ən əsası müvafiq tədbirlərin görülməsində fayda var. Bunun üçün maarifləndirmə və könüllülük fəaliyyətinin artırılması öndə olmaqla, xüsusi proqramlar hazırlanmalı və həyata keçirilməlidir".

**Q.İbrahimlinin sözlərinə görə, iqlim dəyişikliyi antropogen amillə birbaşa bağlıdır. Həm artan əhali sayı, həm də sənayenin sürətli inkişafı istixana qazlarının atmosferdə çoxalmasına səbəb olur. Bunun üçün də ekoloq qeyd edir ki, daş kömürün sənaye və məişətdə istifadəsini minimuma endirmək lazımdır:** "İnkişaf etmiş ölkələrin atmosferdə karbon emissiyasının yüksəlməsində payının yüksək olduğunu nəzərə alaraq, nanotexnologiyalar vasitəsilə karbon emissiyasında artımın azaldılmasına nail oluna bilər. Azərbaycanda alternativ enerji mənbələrinə keçid və onların tətbiqi sevindirici haldır. Külək və günəş enerjisindən istifadə iqlim dəyişikliyinin qarşısının alınmasında ən mühüm addımdır.

Açığı, dünyada iqlim dəyişikliyinin qarşısının tam alınması qeyri-mümkündür. Lakin prosesi zəiflətmək və gələcək nəsillərin də həyatını xilas etmək üçün "Kioto" protokolu və "Paris" sazişi kimi beynəlxalq sənədlərin icrasına diqqət artırılmalıdır. Havanın istiliyinin yüksəlməsinin bir dərəcəni belə ötməməsinə nail olunmalıdır. Bunun üçün isə sənaye və kənd təsərrüfatının inkişafında karbon emissiyasını yüksəldən texnologiya və siyasətdən imtina olunmalıdır. Ətraf mühitin qorunmasının, hava, torpaq və suyun çirklənməsinin qarşısının alınmasının yolu davamlı maarifləndirmədən keçir. Planetimizi qorumaq hər kəsin öhdəliyidir".

**Şəymən**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**




# Əkilən məhsul daxili tələbatı tam ödəmir

## Ona görə bazarlarda Pakistan kartofları meydan sulayır

**Paytaxtda əhali kartof və soğanın qiymətinin baha olmasından narazıdır. Hazırda bazarlarda kartofun 1 kiloqramı təxminən 1,50-4 manata, soğanın 1 kiloqramı isə 1,30-1,70 manata satılır. Bəs qiymətinin baha olması nə ilə əlaqədardır?**

*İqtisadçı-ekspert Rauf Qarayev "Şərq"ə açıqlamasında yeni məhsullar bazara çıxanda kartof-soğanın ucuzlaşacağını deyib:* "Hazırda piştaxtalarda ölkəyə Pakistandan idxal olunan kartof üstünlük təşkil edir. Əvvəllər isə Azərbaycana kartof, əsasən, Belarusdan, Rusiyadan, Ukraynadan gəlirdi. İndi heç İran kartoflarını da bazarda görmürük. Tələbatı Pakistan kartoflarının hesabına ödəyirlər. Məsafə baxımdan isə ora uzaqdır, amma itirilmiş bir bazarı digəri ilə əvəz etməyə məcburuq. Bu da qiymət artımına təsir edir.

Eyni zamanda dünyada gedən bahalaşma prosesi təbii olaraq kənd təsərrüfatı məhsullarının qiymətinə təsir edir. Həm də ki, ölkəmizdə əkilən məhsullar, əsasən, Rusiya bazarlarına gedir və daxili tələbatı ödəmək üçün Pakistandan kartof almalı oluruq. Yəni görünən odur ki, əkilən məhsul daxili tələbatı tam ödəmir və məhsulun qiyməti artmağa başlayır. Dəfələrlə qeyd etmişik ki, məhsulun qıt olmamağı üçün soyuducu anbarların sayını artırmaq lazımdır. Amma ölkəmizdə anbarlar az olduğundan ora qoyulan məhsullar da bazara çıxarıldıqda qiymətə təsir etmir. Yəni anbarların az olması qiymətin yüksək olmasına gətirib çıxarır. Digər amil isə anbarlarda texniki dəstək qiymətinin də yüksək olmasıdır. Azərbaycan kənd təsərrüfatı dərmanlarını da xaricdən alır və bu da qiymət artımına təsir edən amillərdəndir".

*"Dəfələrlə qeyd etmişik ki, məhsulun qıt olmamağı üçün soyuducu anbarların sayını artırmaq lazımdır"*

**Soğanın niyə bahalaşmasına gəldikdə isə R.Qarayev deyib ki, bu da kənd təsərrüfatında düzgün proqnozlaşmanın olmamasından irəli gəlir:** "Sahibkarın xarici bazara çıxışının məhdudlaşması, soğan saxlamaq şəraitinin məhdud olması səbəblərindən kəndli soğanı az əkir. Buna rəğmən may ayında soğanın da qiymətinin aşağı düşəcəyini güman edirəm. Bazara təzə kartof, soğan çıxanda, təbii ki, qiymətlərdə də enmə olacaq".

**Şəymən**

# Heç olmasa, bundan sonra qiymətlər bahalaşmasın!

## Baş nazirin qərarı qiymət artımının qarşısını almaq üçün yox, qiymətlərin stabil qalması üçündür

**Azərbaycana idxal olunan 270 növ müxtəlif mallar 2030-cu ilin dekabrın 31-dək gömrük rüsumundan azad edilib. Bununla bağlı Baş nazir Əli Əsədov Nazirlər Kabinetinin "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə dəyişiklik edilməsi barədə qərar imzalayıb.**

Dəyişikliyə əsasən, idxal rüsumundan azad edilən 203 mal üzrə gömrük dərəcəsi 15 faiz, 67 mal üzrə isə 5 faiz təşkil edirdi. Bu siyahıya balıq unu, şəkər əlavələri və siroplar, həmçinin bəzi bitki toxumları, çörəkçilik məhsulları, heyvan yemləri, yem əlavələri, gübrələr, tropik meyvələr, kağız, karton və sair mallar daxil edilib. Həmçinin gələn il yanvarın 1-dən Azərbaycana idxal olunacaq tropik meyvələr də 15 faiz gömrük rüsumundan azad ediləcək. 01 yanvar 2024-cü ildən qüvvəyə minəcək qərar 31 dekabr 2030-cu ilədək qüvvədə olacaq. Qeyd edək ki, bu ilin fevralın 8-də Nazirlər Kabinetinin qərarı ilə qeyd edilən mal növləri 2023-cü ilin dekabrın 31-dək gömrük rüsumundan azad edilib.



*"Gömrük rüsumunun, hətta ƏDV-nin faizinin də azaldılması əsas şərt deyil. Əsas şərt inhisarçılığın aradan qaldırılmasıdır. İnhisarçılıq varsa, istəyirsən gömrük rüsumunu ləğv et, ƏDV-ni azalt və ya ləğv et, vəziyyət dəyişməyəcək"*

İdxal mallarının gömrük rüsumundan azad edilməsi ərzaq qiymətlərinə nə dərəcədə təsir edə bilər? Adətən, istehsalçılar gömrük rüsumlarını əsas gətirərək qiymət artımının qaçılmaz olduğunu bildirir. Amma Baş nazirin qərarında gömrük rüsumundan azad edilən mallar sırasnda çörəkçilik məhsulları, heyvan yemləri, yem əlavələri, gübrələr, tropik meyvələr də var. Yəni bu malların gömrük rüsumundan azad edilməsi çörək və un məmulatlarının, ətin, yumurtanın, tropik meyvələrin ucuzlaşmasına niyə səbəb olmamalıdır?

**Məsələ ilə bağlı "Şərq"ə danışan iqtisadçı Fuad İbrahimov qeyd etdi ki, idxal rüsumu başqadır, əlavə dəyər vergisi başqa:**

- Baş nazirin qərarında gömrük rüsumundan azad edilən malların siyahısı verilib. Bu, idxal rüsumudur. Bir də var 18 fazi əlavə dəyər vergisi, hansı ki məhsulun üzərinə əlavə edilir, bu rüsum götürülməyib. Doğrudur, çörəyə, yumurtaya ƏDV tətbiq edilmir. Amma bütün digər, əksər mallara ƏDV tətbiq edilir. Çörəkdə ƏDV yoxdur, un məmulatlarının digərlərində isə var. Bu da qiymətin ucuzlaşmasına imkan vermir. Ümumiyyətlə, iqtisadiyyatın normal bazar münasibətləri şəraitində inkişafı üçün gömrük rüsumunun, hətta ƏDV-nin faizinin də azaldılması əsas şərt deyil. Əsas şərt inhisarçılığın aradan qaldırılmasıdır. İnhisarçılıq varsa, istəyirsən gömrük rüsumunu ləğv et, ƏDV-ni azalt və ya ləğv et, vəziyyət dəyişməyəcək. Yumurta ƏDV-dən azaddır, qiymət düşür? Əksinə, bəzi vaxtlarda qiymətdə kəskin artım baş verir. Ona görə də qiymət monopoliyasının qarşısını almaq üçün əvvəlcə inhisarçılığın qarşısı alınmalıdır. Bu edilmirsə, güzəştlərin effekti olmayacaq.

**F.İbrahimov qeyd etdi ki, idxal olunan bir sıra malların gömrük rüsumundan azad olunma müddətinin uzadılması, əslində kənd təsərrüfatı, heyvandarlıq üçün müsbət tendensiyadır:**

- İdxal rüsumundan azad edilən mallar arasında görürük ki, heyvan yemi, yem əlavələri, gübrələr, bitki toxumları var. Bunlar kənd təsərrüfatını stimullaşdıran amillərdir. Tutalım, bir fermerin 5 min baş heyvanı var, amma o, yem bazası baxımından korluq çəkirsə, təsərrüfatını böyütməyə risk etmir. Heyvan yemi, yem əlavələri gömrük rüsumundan azad edilirsə, bu, fermerə təsərrüfatını genişləndirmək imkanı yaradır. Həmçinin də gübrələr, bitki toxumları bitkiçilik, bostançılıqla məşğul olanların imkanlarını artırır. Bir sıra malların gömrük rüsumundan azad edilməsi qiymət siyasətinə necə təsir edəcək məsələsinə gəlincə, hesab edirəm ki, bu qərar qiymət artımının qarşısını almaq üçün yox, qiymətlərin stabil qalması üçündür. Yəni heç olmasa, bundan sonra qiymətlər bahalaşmasın. Ümumiyyətlə, qiymətlərə dövlət nəzarəti formalaşmalıdır.

**Məlahət Rzayeva**



## “Adama baş yox, ayaq lazımdır"

Rəşid Mahmudov: ”Səhhətim yaxşıdır, bir az ayağım ağrıyır”

**Uzun müddətdir efirlərdə olmayan fizioloq Rəşid Mahmudov ”Şərq”-ə açıqlama verib.**

**O, bu günlərdə kitab yazmaqla məşğul olduğunu bildirib:** ”Əvvəl 850 səhifəlik kitab yazmışam. İndi isə orqanların funksiyalarının, şəkillərinin yer aldığı kitab hazırlamışam. Səhhətim yaxşıdır, bir az ayağım ağrıyır. Adama baş deyil, ayaq lazımdır. Başın yerinə qarpız da qoysan, ayağın aparacaq. Ayağınızdan muğayat olun. Azərbaycan televiziyasını izləmirəm, türk kanallarına baxıram”.

**R.Mahmudov efirdəki şou-biznes adamlarının xoşagəlməz davranışları ilə bağlı suala gəlincə, bunları söyləyib:** ”O bizim problem deyil, nə qədər istəyirlər şıllaq atsınlar. Mənasız şeylərdir, pul qazanmaq üçün hər şeyə gedirlər”.

**Samirə Ərəblinskaya**

## "Hökumətdən pul yeməyin..."

Nura dövlət qurumunu biabır etdi



**Müğənni Nura Suri feysbuk statusu ilə diqqət çəkib.**

”Şərq” xəbər verir ki, Nura Xətai rayonundakı sosial problemdən yazıb:

”Xətai rayonunda hər ay təmir adıyla qazı kəsirlər (illərdir davam edir). Hökumətdən pul yeməyin başqa yolunu tapa bilməyiblər indiyə kimi?”.

**Samirə**

## Ətrin qiyməti 800 manat civarındadır

Aygün Kazımova aparıcıya hədiyyə edib



**Aparıcı Kazım Sübhan Xalq artisti Aygün Kazımovanın ona bağışladığı hədiyyədən danışıb.**

”Şərq” xəbər verir ki, bu haqda o, rejissor Nail Naiboğlunun ”Qırmızı” adlı yutub layihəsində müsahibəsi zamanı söz açıb.

Kazımovanın ona ad günündə gözəl ətir hədiyyə etdiyini deyib. Kazım söyləyib ki, ətrin qiyməti 800 manat civarındadır. Buna görə də onu ən dəyərli və qiymətli hədiyyə hesab edib.

**Samirə**

## Fədayə Laçın xəbər verdi

Aftandil İsrafilovun qardaşının da səhhəti yaxşı deyil



**Rusiyada yaşayan azərbaycanlı müğənni Fədayə Laçın səhhətində problem yaranan Xalq artisti Aftandil İsrafilovla bağlı paylaşım edib.**

”Şərq” xəbər verir ki, instaqramda qarmon ifaçısının videosunu paylaşan Fədayə onun qardaşının da səhhətinin yaxşı olmadığını deyib:

”Böyük sənətkarımız, lap gənc yaşlarımdan mənə həmişə dəstək olan gözəl insan Aftandil İsrafilov, Allah sizə şəfa versin. Bir möcüzə olsun.

Siz də, qardaşınız Ənuş İsrafilov da tezliklə sağalın, evinizə, ailənizə dönün inşallah. Sizi sevirik, sənətkar. Dualarımızdasınız”.

**Samirə**

## Meyxanadan "dəlixana"ya yol

“Mən sənə mikrofon, sən də mənə şillə...”



**“Ötən dəfə bir gənc həmkarım danışır. Deyir, toyda bir meyxanaçı digərinə deyib ki, sənə mikrofon atım, sən də mənə şillə, tiktoka qoyum, partladaq”.**

”Şərq” xəbər verir ki, bu sözləri ”Maqazin Plus”a açıqlamasında meyxanaçı Orxan Lökbatanlı deyib.

O, gənc həmkarlarını tənqid edib: ”Belə tanınmaq olar? Məntiqsizdir. Sənətlə sənətkar kimi tanın. Elə meyxana de ki, əl çalım, deyim, çox sağ ol. Gənc meyxanaçılara birinci tövsiyəm odur ki, bu sənəti həmin səviyyəyə qaldıran kişilər var. Biz də onlara təkan veririk ki, həmin zirvədən düşməsin. Bu sənəti düşməyə qoymayın. Bu, yalnız Azərbaycandadır”.

**Samirə**

# Şadlıq sarayları toyuğu, əti əvvəlki qiymətə almır

Ona görə qiymətləri qaldırmağa məcburdur

**İqtisadi və Sosial İnkişaf Mərkəzi şadlıq saraylarındakı qiymətlər barədə məlumat açıqlayıb. Məlumatda qiymətlərin artdığı aydın nəzərə çarpır. Qiymət artımının əsas səbəbi kimi mart ayının 22-dən etibarən Ramazan ayının başlanması və mart ayı ərzində bayram günlərinin sayının çox olması göstərilir. Bu səbəbdən mart ayı üçün şadlıq saraylarında sifarişlərin miqdarı da azalaraq 67.4 faiz təşkil edib. Qiymətlər isə 8.4 faiz artıb. Xüsusən 40 manatadək olan menyularda qiymət artımı daha çox olub: 11.4 faiz. Qiyməti 40-80 manat olan menyuların qiyməti 7.6 faiz yüksəlib. Dəyəri 100 manatdan çox olan menyuların qiymətində də 6.3 faiz artım qeydə alınıb.**



***"Aztəminatlı kəsim bahalı şadlıq saraylarında toy məclisi təşkil etməkdən vaz keçir"***

Görünən budur ki, şadlıq sarayları azalan sifarişləri qiymət artımı ilə kompensasiya etməyə çalışır. Toyların daha az keçirildiyi may ayında, eləcə də Ramazan və Məhərrəm aylarında şadlıq sarayları bir müddət sifariş qıtlığı yaşayır. Bu müddətlər bitdikdən sonra isə itirdikləri maliyyəni qiymətləri qaldırmaqla yenidən əldə etməyə çalışırlar. Amma başqa səbəblər də ola bilər.

**İqtisadçı Natiq Cəfərli ”Şərq”ə açıqlamasında qeyd etdi ki, COVID qadağaların qaldırılması əslində qiymətlərin ucuzlaşmasına şərait yaratmalıydı, lakin gözlənilən baş vermədi:**

- Karantin qaydalarına dəyişiklik edilib toy məclislərinə icazə verildikdə qonaq sayının 150-dən artıq olmaması şərti qoyuldu. Bu da sahibkarlara sərf etmədiyindən qiymətlərdə artım oldu, çünki az qonaq sayını qiymətlərlə kompensasiya etməyə çalışdılar. Amma artıq uzun müddətdir ki, nə karantin qadağaları var, nə də qonaq sayına hər hansı məhdudiyyət. Əvvəlki kimi toylar 500 nəfərlik, hətta daha artıq dəvətli ilə keçirilir. Əslində bu, qiymətlərin sabitləşməsinə, hətta ucuzlaşmasına səbəb olmalıydı. Məntiqlə belə olmalıydı. Lakin ümumi qiymət bahalaşması buna imkan vermir. Ərzaq məhsullarının qiymətlərindəki inflyasiya qiymətlərin bahalaşmasına səbəb olub. Ərzağın qiymətində hazırda nəzərəçarpacaq artım var. Qiymətlərin enəcəyi ehtimalı da azdır. Şadlıq sarayları ərzağın qiymətindəki artımı səbəb göstərərək menyuların qiymətini qaldırır. Bu da anlaşılandır. Məsələn, şadlıq sarayı toyuğu, əti əvvəlki qiymətə almır axı. Ümumi qiymət artımı var deyə, şadlıq sarayları da qiymətləri qaldırmağa məcburdur. Bu, zəncirvari bir prosesdir. Bu başqa məsələdir ki, əhalinin gəlirləri azaldıqca, şadlıq saraylarına sifarişlər də azalır. Aztəminatlı kəsim bahalı şadlıq saraylarında toy məclisi təşkil etməkdən vaz keçir. Nisbətən əlçatan, ucuz qiymətlər təklif edən şadlıq saraylarına üz tuturlar, ya da ümumiyyətlə, həyət toylarına üstünlük verirlər. Bütün hallarda şadlıq sarayları üçün qiymət artımına istər-istəməz şərait formalaşmış olur. Sifarişləri azalan, müştəri itirən şadlıq sarayları itirdiklərinin əvəzini sifarişçidən çıxmağa çalışır. Şadlıq sarayının da xərcləri, vergisi, işçilərin əməkhaqqının ödənilməsi problemi var. Amma mən ötən dəfə də bildirmişdim ki, şadlıq sarayları vətəndaşların da qiymət bahalığından əziyyət çəkdiyini, zərərçəkən olduğunu nəzərə alıb, qiymət artımını qonaq sayı ilə kompensasiya edə bilər. Yəni toylara əvvəlki qaydada qeyri-məhdud sayda qonaq dəvət ediləcəksə, qiymətləri qaldırmamaq olar. Çünki əhalinin də maddi durumu nəzərə alınmalıdır. Şadlıq sarayları yaranmış şəraitdən istifadə edib sifarişçiyə uyğun qiymətlər təklif edib, ərzaq qiymətlərindəki artımın qarşısını qonaq sayı ilə kəsə bilər. Zatən toylarda 3 cür menyu təklif edilir: sadə, orta və bahalı. Hər kəs də imkanı daxilində menyunu seçir.

**Məlahət Rzayeva**



## Hibrid avtomobillərə tələbat artır

Ukrayna taksi şirkətlərindən biri də Azərbaycan bazarına daxil oldu

**”Nazirlər Kabineti tərəfindən buraxılış müddəti 10 ildən çox olan maşınların ölkəyə girişinə qadağa qoyulduqdan sonra artıq bilinirdi ki, köhnə avtomobillərin qiyməti bahalaşacaq”.**

**Bunu ”Şərq”ə açıqlamasında iqtisadçı-ekspert Natiq Cəfərli ili köhnə avtomobillərin qiymətinin artmasından danışarkən deyib. O bildirib ki, bazarda köhnə avtomobillərə ciddi tələbat var:** ”Bu tələbata uyğun olaraq könhə avtomobillərin qiymətində artım olmalı idi. Sırf hibrid maşınlara gəldikdə isə onlara tələbat əvvəlkinə nisbətən qat-qat yüksəkdir. Çünki iş yerləri ilə problemlər var və maşın sürməyi bacaran insanlar taksi xidmətlərinə yönəlir. Hətta yeni taksi şirkətləri də yaradılır. Bu yaxınlarda Ukrayna taksi şirkətlərindən biri də Azərbaycan bazarına daxil oldu. Bu da hibrid avtomobillərə tələbatı artırır. Çünki bu avtomobillərin benzin sərfiyyatı çox aşağıdır. Əslində ötən illərin dinamikasına baxdıqda da yay aylarında avtomobil qiymətlərində müəyyən artımların olduğunu müşahidə edirik. Yəni insanların yay aylarında avtomobil həvəsi və tələbatı artır. Ona görə də yaxın günlərdə qiymətlərdə enmələrin olacağını düşünmürəm. Bazarda durğunluq təqribən noyabr, dekabr və yanvar aylarında olur. Ola bilsin ki, ilin sonu və ya gələn ilin əvvəllərində qiymət artımında müəyyən səngimələr, hətta ucuzlaşmalar gördük. Amma yaxın aylarda qiymətin ucuzlaşacağı ilə bağlı hansısa tendensiyanın olacağını düşünmürəm”.

*Qeyd edək ki, ölkədə ən çox tələbatın olduğu ”Toyota Prius” markalı avtomobillərin qiyməti artıb. Belə ki, bir müddət əvvəl bu avtomobillər alıcılara 7-12 min manat arası təklif olunurdusa, hazırda bu qiymət 15-16 min manatdır.*

**Nihat Müzəffər**

# Ağır işlərdən uzaq olsunlar

Hemofiliyalı xəstələr mümkün olduqca özlərini qorumalıdır



**Aprelin 17-si Ümumdünya Səhiyyə Təşkilatının və Dünya Hemofiliya Federasiyasının təşəbbüsü ilə Ümumdünya Hemofiliya Günü kimi qeyd edilir.**

1989-cu ildən qeyd edilən bu günün məqsədi, hemofiliya və onunla yaşayan insanların ümumi diqqətini cəlb etmək, bu xəstəlikdən əziyyət çəkənlərə dəstək və məlumat verməkdir. Eyni zamanda qanın laxtalanması prosesinin pozulması ilə əlaqədar irsi xəstəlik olan hemofiliyadan əziyyət çəkənlərin hər gün üzləşdiyi problemlərə dünya ictimaiyyətinin, siyasətçilərin və səhiyyə işçilərinin diqqətini cəlb etmək, bu barədə onların məlumatlılığını artırmaqdır.

Hemofiliya qanaxma ilə müşahidə olunan xəstəliklərin bir qrupudur və qanı laxtalandıran lazım olan qan faktorlarından birinin çatışmazlığı ilə xarakterizə olunur. Xəstəliyə məruz qalanlar müəyyən bir səbəbdən və ya əməliyyatlardan, diş ətindən və ya zədələnmələrin nəticəsində baş verən qanaxma epizodları ilə qarşılaşa bilərlər.

Oynaqlarda və əzələlərdə təkrarlanan qanaxmalar oynaqların ağrılı iltihabına (artrit) və müvafiq deformasiyalara səbəb ola bilər.

Hemofiliya valideynlərin genləri ilə ötürülən nadir anadangəlmə, əsasən də oğlan uşaqlarına irsən ötürülən xəstəlikdir. Xəstəliyin əsas səbəbləri yaxın qohumların nikahı, radiasiyalı ətraf mühit, qida və tütün məmulatlarının təsiridir. Bu xəstəliyə başqalarından yoluxma mümkün deyil.

Hemofiliya xəstəliyinin ağırlıq dərəcəsi, ölkədə hemofiliya xəstələrinin problemlərinin həlli istiqamətində görülən işlərlə bağlı sualları cavablandıran Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti Şəhla Şabanova deyib ki, hemofiliya qanın laxtalanma sistemində olan VIII və (və ya) IX faktorların çatışmaması ilə xarakterizə olunan irsi qan xəstəliyidir və ciddi qanamalarla izlənilən nadir xəstəliklər qrupuna daxildir: ”Hemofiliyanın səbəbi qanın laxtalanmasını təmin edən faktorların əskik olmasıdır. A və B olmaqla iki tip hemofiliya var. Hemofiliya A xəstəliyin ən çox yayılmış növüdür və VIII qan laxtalanma faktorunun çatışmazlığından yaranır. Hemofiliya B isə IX laxtalanma faktorunun olmaması və ya ciddi şəkildə çatışmazlığı səbəbindən olur. Bu xəstəlik oynaqlarda, daxili orqanlarda və əzələlərdə spontan və ya zədədən bir neçə saat sonra qanaxma ilə xarakterizə olunur. Yüngül dərəcəli hemofiliyada cərrahi əməliyyat və ya diş çıxarılması zamanı ağır qanaxma baş verə bilər”.

Ş.Şabanovanın sözlərinə görə, faktor səviyyəsindən asılı olaraq, hemofiliya xəstələri yüngül dərəcəli hemofiliya (faktor səviyyəsi 5-40 faiz arasında), orta dərəcəli (faktor səviyyəsi 1-5 faiz), ağır dərəcəli hemofiliya (faktor səviyyəsi ? 1 faiz) olmaqla 3 qrupa ayrılır: ”Hemofiliya xəstələrində spontan və dayandırılması çətinlik yaradan qanamalar ola bilir. Orta dərəcəli hemofiliyalı xəstələrdə spontan qanama, əksər hallarda isə kiçik travma və ya minimal invaziv müdaxilə əsnasında belə uzun davam edən qanaxmalar izlənilir. Ağır dərəcəli faktor çatışması olan hemofiliyalı xəstələrdə isə heç bir müdaxilə olmadan belə çox ağır qanaxmalar baş verir”.

Mütəxəssis deyib ki, bir çox hallarda planlanan əməliyyat öncəsində yoxlanılan koaqulyasiya testlərindəki dəyişiklik nəticəsində hemofiliya xəstəliyindən şübhələnilərək qanda faktor səviyyəsi yoxlanılır. Hemofiliyanın ağır və orta dərəcəli formalarında müxtəlif şiddətdə dəri hemorragik sindromu çoxsaylı ekximoz və hematomlar şəklində aşkar edilir: ”Hemofiliya təkrarlanan qanaxma, səbəbi bilinməyən hemartroz və ya uzunmüddətli aktivləşdirilmiş qismən tromboplastin zamanı (APTZ) olan xəstələrdə diaqnoz qoyulur. Faktor VIII və ya faktor IX səviyyəsində çatışmazlıq varsa, hemofiliya diaqnozu təsdiqlənərək hansı səviyyədə çatışmazlıq olduğu müəyyən edilərək xəstəliyin ağırlıq dərəcəsi təyin edilir. Müalicə prinsipində ilkin olaraq baş verə biləcək qanamanın qarşısını almaq üçün çatışmayan faktor konsentrasiyası ilə xəstəni təmin etməkdir. Qanama ən qısa müddətdə (ilk 2 saat ərzində) faktor konsentrasiyası köçürülərək dayandırılmalıdır. Bundan başqa, hemofiliya xəstələri qanama riskini nəzərə alaraq xəstəliyi təsdiq edən, hansı növ, inhibitor forma, ağırlıq dərəcəsi qeyd edilən sənəd daim özləri ilə olmalıdır. Faktor köçürülməsinə rəğmən qanama davam edərsə, inhibitor varlığı araşdırılmalıdır”.

Azərbaycandakı hemofiliyalı xəstələrin problemlərinə gəldikdə isə Ş.Şabanova deyib ki, hemofiliyadan əziyyət çəkən insanların müalicəsi ilə bağlı son illər Azərbaycanda bir sıra mühüm tədbirlər görülüb. Prezident İlham Əliyevin ”Hemofiliya və talassemiya irsi qan xəstəliyinə düçar olmuş şəxslərə dövlət qayğısı haqqında qanunun tətbiq edilməsi haqqında” Fərmanı bu qayğının bariz nümunəsidir. Həmçinin 2005-ci ildə Dövlət Proqramı qəbul olunub, 2006-cı ildən isə qan laxtalandırıcı faktor preparatları ölkəmizə gətirilir və pasiyentlərə təmənnasız olaraq təqdim edilir. Görülən tədbirlər nəticəsində hemofiliyalı xəstələrin normal həyat fəaliyyətinin təmin edilməsinə, ömürlərinin uzanmasına, bu xəstəlikdən əlillik və ölüm hallarının azaldılmasına səbəb olub: ”Tövsiyə edirəm ki, hemofiliyalı xəstələr mümkün olduqca özlərini qorusunlar, ağır işlərdən uzaq olsunlar. Uzun səfərlər zamanı ilk yardım üçün lazım olan dərman və tibbi ləvazimatları olan çantanı özləri ilə götürsünlər. Bundan başqa, qan durulaşdıran dərmanların (Aspirin və digərləri) nəzarətsiz qəbulu hemofiliyalı xəstələr üçün təhlükəlidir. Mümkün qədər əzələdaxili inyeksiyalardan çəkinmək lazımdır. Diş problemi ilə bağlı stomatoloqlar öncədən məlumatlandırılmalı, xəstənin mövcud vəziyyəti müalicə həkimi ilə qiymətləndirilməlidir”.

**Şəymən**

**Elan**

Azərbaycan Respublikası, Fövqəladə Hallar Nazirliyi, Bakı şəhəri, Qaradağ rayon Dövlət yangından mühafizə hissəsinin 12 nömrəli Yanğından mühafizə bölməsinin böyük yanğınsöndürəni Rəsulov Elvin İbrahim oğluna məxsus daxili xidməti baş çavuş vəsiqəsi və sığorta kartı itdiyi üçün etibarsız sayılır.

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Sücayət Mehti

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan Nəşriyyatı” MMC-nin mətbəəsində çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi:
“Muğanbank” ASC baş ofis
Kod: 506162
VÖEN: 1400122681
M/H: AZ41NABZ01350100000000018944
S.W.İ.F.T.: MUGAAZ22
AZM hesab nömrəsi: AZ76MUGA400603803000225AZM00
VÖEN 1300414651 İndeks: 0330

Tirajı: 1550 Sifariş: 995



## İdmançını parçalamış ayını bağışladılar

Vəfat etmiş Andreanın ailəsi ayının öldürülməsinə etiraz edib

**İtaliyanın şimalındakı Trento Muxtar Bölgəsində, Alp dağları ətəklərində qaçış ustası Andrea Papi qəflətən bir ayının hücumuna məruz qalıb.**

"Şərq" "NTV.com.tr"yə istinadən xəbər verir ki, Andrea Papi Alp ərazisindəki Caldes qəsəbəsi yaxınlığında məşq edib. Dişi ayı bu zaman ona hücum edib və idmançını ağır yaralayıb. Aldığı yaralardan idmançı vəfat edib. Kişinin cəsədini aşkarlayan yerli polis onun ayı hücumu nəticəsində öldüyünü təsdiqləyib. "Jj4" adı verilmiş ayının ərazidə təqibi başladılıb. Ov itlərinin köməyi ilə Trento yaxınlığındakı Madonna di Campiglio bölgəsində 1400 metr yüksəklikdə ayının izinə düşüblər və orada tələ qurulub. Bir müddət sonra ayı tələyə düşüb. İdmançıya hücum etmiş ayının 17 yaşlı dişi olduğu müəyyənləşib. Muxtar bölgə başqanı ayı harda görünsə, dərhal vurulması göstərişi verib. Lakin vəfat etmiş Andreanın ailəsi ayının öldürülməsinə etiraz edib. Ələ keçirilən ayı Castellər vəhşi təbiəti qoruma sığınacağına təslim edilib. Bölgədə 2020-ci ildə də oxşar faciənin yaşandığı bildirilir. Lakin o zaman da məhkəmə ayıların məhv edilməsi qərarını ləğv edib.

**Məlahət**

## Öləcəklərini təxmin edirdilər

Gənc qızların son mesajları ortaya çıxdı



**Ötən həftə Cənubi Amerika ölkələrindən olan Ekvadorda son günlərin ən dəhşətli hadisəsi yaşanıb. Bu olay bütün dünya mediasının manşetlərinə daşınıb.**

Ölkənin Quininde yaxınlığındakı Esmeraldas çayının sahilində 3 gənc qızın cəsədi tapılıb. Xəbərdən sonra hadisə yerinə gələn qruplar, araşdırma nəticəsində qızların işgəncələrə məruz qalaraq, boğazları kəsilərək öldürüldüyünü müəyyən ediblər. Cəsədlərin hər biri bağlanmış, boğazları kəsilmiş və ağızları lentlə bağlanmış vəziyyətdə tapılıb. Məlumata görə, üç gənc qadından ikisi yoxa çıxmamışdan bir neçə saat əvvəl yaxınlarına təhlükədə olduqlarını bildirən mesajlar göndəriblər. 19 yaşlı Denisse Reyna dostuna "Mən hiss edirəm ki, bir şey olacaq" mesajı göndərib, 22 yaşlı Nayeli Tapia isə rəfiqəsi ilə yerini paylaşıb və ona "Hər şeyə rəğmən səni sevirəm" deyən vatsap mesajı göndərib. Həmin gün Reynanın bir rəfiqəsinə "bir şey olacağını hiss edirəm və başıma bir şey gəlsə, səni çox sevdiyimi unutma" mesajı göndərdiyi müəyyənləşdi. "New York Post" xəbər verir ki, qadınların tapıldığı yer martın əvvəlindən narkotik qaçaqmalçılığının mərkəzi kimi tanınır. Amma qadınların qohumları israr edirlər ki, qurbanların kartellərlə heç bir əlaqəsi yoxdur. Həlak olanlar bazar günü, aprelin 9-da dəfn edilib.

**Turan**

## "Serenay bir bölüm üçün 850 min alır"

**Nuri Alço əsəbiləşdi**



**"Yeşilçam"ın ulduzu aktyor Nuri Alço son açıqlaması ilə diqqət çəkib.**

**Aktyor baş rol ifaçılarının aldıqları məbləğlərdən şikayətlənib. "Seriallarda mövzular eynidir. Reytinqi olandan sonra uzatdıqca uzadırlar. "Yarqı"nı izləyirəm. Aktyorlar çox yaxşıdır, amma mövzu uzadılır.**

**Digər məsələ isə ortada astronomik rəqəmlər var. Serenay Sarıkaya 1 bölüm üçün hər həftə 850 min lirə məbləğində ödəniş alır. Belə bir məbləğ ola bilməz. Bu pulu yalnız baş rol ifaçıları alır, digərləri o məbləği görmür. Biz pulsuz rollar ifa etmişik" deyə, o, bildirib.**

## Hadisənin vannadakı fotoları gündəm oldu

**"Duyğularıma, səsimə və fəryadıma ortaq olacağınızı bilirdim"**



**Məşhur müğənni Hadisə son klipi "Fəryad" üçün çəkdirdiyi şəkillərlə diqqəti cəlb edib.**

**Bakupost.az xəbər verir ki, müğənni İnstaqram hesabına vannada çəkdirdiyi şəkilərin yenisini əlavə edib.**

**Hadisənin yeni paylaşımları sosial mediaya damğa vurub. O, paylaşdığı fotoların altına qeyd yazıb: "Duyğularıma, səsimə və fəryadıma ortaq olacağınızı bilirdim. "Fəryad"ı bu qədər qısa vaxt ərzində nömrə 1 etdiyiniz üçün sonsuz təşəkkürlər".**

## İstanbulda bir milyon dollarlıq brilyant ələ keçirilib



**İstanbul Polisinin tarixi ticarət mərkəzi "Kapalı Çarşı"da qeyri-qanuni almaz qaçaqmalçılığına qarşı keçirdiyi əməliyyat nəticəsində 61.38 karat, 1 milyon dollar dəyərində xam brilyant ələ keçirilib. Trend-in TurkicWorld-a istinadən məlumatına görə, brilyantın Afrikada qeyri-qanuni yollarla Türkiyəyə gətirildiyi müəyyən edilib.Qaçaqmalçılıqda şübhəli bilinən iki Suriya vətəndaşı saxlanılıb.**




# Xərçəng peyvəndi hazırlandı

"Moderna" şirkəti ümidləri artırdı

***Cərrahi əməliyyat keçirmiş 157 nəfərə peyvənd vurulub. Bu insanlardan demək olar ki, yarıdan çoxunda xərçəngə təkrar yoluxma qeydə alınmayıb***






**COVID-19-a qarşı keyfiyyətli mRNA peyvəndilə tanınan "Moderna" şirkəti eyni texnologiyanı tətbiq etməklə xərçəng peyvəndi hazırlayıb. Təcrübədən keçirilən peyvəndin xeyli dərəcədə ümidverici olduğu bildirilir. "Şərq" "NTV.com.tr"yə istinadən xəbər verir ki, "Moderna" şirkəti peyvəndi dəri xərçəngi diaqnozu qoyulmuş xəstələr üzərində sınaqdan keçirib.**

Nəticə uğurlu olub. Hazırlanmış peyvəndin xərçəngə tutulma riskini 44 faiz azaltdığı müəyyənləşib. Şirkətdən bildirilib ki, bu il xərçəng peyvəndilə bağlı kliniki təcrübələrin üçüncü mərhələsi aparılacaq, peyvəndin ağ ciyər və xərçəng xəstəliyinin digər növlərinə, xərçəng şişlərinə təsiri araşdırılacaq. ABŞ dərman istehsalçıları "Moderna" və "Merck mRNA" peyvəndi üzərində aparılan təcrübələrdə dəri xərçəngi olan melanomun riskini yarıbayarı azaltdığını elan edib. Təcrübə zamanı melanom müalicəsi üçün cərrahi əməliyyat keçirmiş 157 nəfərə peyvənd vurulub. Bu insanlardan demək olar ki, yarıdan çoxunda xərçəngə təkrar yoluxma qeydə alınmayıb. Peyvəndin yanaşı təsirləri isə yorğunluq, iynənin yerində ağrı və titrəmə olub. "Moderna"nın başqan yardımçısı doktor Kayl Holen "nəticələr, mRNA peyvəndinin xərçəng xəstələrinə müsbət təsiri olduğu aydındır. mRNA xəstələrin ömrünü uzadacaq", deyib.

**Məlahət**



# Günahsız zənci güllələnib

Yad qapını döydü, başından vuruldu

**ABŞ-da səhv ünvana gedən zənci yeniyetmə ev sahibi tərəfindən güllələnib. "Şərq" "TRT Haber"ə istinadən bildirir ki, hadisə Kansas Sitydə baş verib. 16 yaşlı Ralph Yarl valideynləri tapşırığı ilə bacı-qardaşlarının ardınca bir ünvana getməli olub. Lakin o, ünvanı səhv salaraq başqa qapının zəngini çalıb.**

Qapıya çıxan ev sahibi qarşısında zəncini görüncə silaha əl atıb və yeniyetməyə 2 dəfə atəş açıb. Yeniyetmı başından ağır yaralanıb. Onu xəstəxanaya aparıblar. Zənci yeniyetmənin vurulması bölgədə etirazlara səbəb olub. Kansas Sity və Missuri ştatında etiraz aksiyaları alovlanıb. Etirazlara səbəb yeniyetmə zəncinin bəyaz birisi tərəfindən heç bir günahı olmadan vurulmasıdır. Zənciyə atəş açan 84 yaşlı Andrew Lester polis tərəfindən saxlanılıb, lakin sonra sərbəst buraxılıb. Bölgədəki etiraz aksiyalarının şiddətindən ehtiyat edən polis şöbəsi 84 yaşlı qocanı təkrar həbs edib və ona qarşı silahlı hücum maddəsiylə cinayət işi açılıb. Yeniyetmənin atası Raul Yarl "Kansas City Star"a açıqlamasında oğlunun xəstəxanadan evə buraxıldığını, səhhətinin yaxşılaşdığını deyib. Açılmış cinayət işində zərərçəkmiş tərəfin hüquqlarını tanınmış vəkil, insan haqları müdafiəçiləri Ben Crump və Lee Merritt müdafiə edəcək. Hüquq müdafiəçiləri şübhəli şəxsin bir müddət sərbəst buraxılmasını artıq pisləyib və yerli hökuməti tənqid ediblər. B.Crump "birisi qapınızı döyürsə, bu, onun vurulması üçün heç bir əsas ola bilməz. Yeniyetməyə silahlı hücum etmiş adam mütləq cəzalanmalıdır. Yoxsa, insanlar qapıları döyməkdən çəkinəcək".

**Məlahət**

## Nəsrin qonşuları ilə problem yaşamayıb

"Binanın içində saxladığım pişiklərin sayı sıfıra bərabərdir"



**Xəbər verdiyimiz kimi, Türkiyədə məşhurlaşan azərbaycanlı aktrisa Nəsrin Cavadzadənin sahibsiz pişikləri yemlədiyi üçün qonşuları ilə problem yaşadığı iddia edilib.**

Axşam.az xəbər verir ki, aktrisa məsələ ilə bağlı açıqlama yayıb.

"Haqqımda yayılan xəbərlər tamamilə əsassızdır. Binanın içində saxladığım pişiklərin sayı sıfıra bərabərdir. Qonşularımızla birlikdə nəinki pişiklərə, bütün heyvanlara həssaslıqla yanaşırıq. Ötən həftə pişiklərdən birinin başına iş gəldi. Bəziləri onu ölümə tərk etdi. Biz də onu çətinliklə tapıb sahibləndirdik. Heç kimlə dava etmədim" deyə, Nəsrin yazıb. v

## Misirdə 3 min il yaşı olan qədim sərdabə tapılıb



**Niderland-İtalyan arxeoloqlar qrupu Misirin Saqqara bölgəsində təxminən 3 min il yaşı olan yaxşı qorunmuş sərdabə tapıblar.**

Oxu.az xəbər verir ki, ərazidə müxtəlif yazılar və qədim Misir tanrılarının təsvirləri olan bir neçə qədim ziyarətgah aşkar olunub.

Alimlər sərdabə üzərində araşdırma aparıb və onun Ramessidlər dövründə (e.ə. 1040 - b.e. 30-cu illər) yaşamış Banhezi adlı şəxsə aid olduğu qənaətinə gəliblər.

Sərdabənin özü daş sütunlu kiçik həyətə yol açan və giriş qapısı olan ayrıca məbəddir. Burada həmçinin yeraltı qəbirlərə aparan tunel və bir-birinin yanında yerləşən üç ziyarətgah var.

Məzarın içərisində mərhum Banhezi və müğənni Amon kimi tanınan həyat yoldaşı Bayanın təsvir olunduğu lövhə də tapılıb. Burada ölü ruhların axirətdə rahatlıq tapmasına kömək edən cənnət və sevinc ilahəsi Hathor tanrısına ibadət səhnəsi əks olunub.

## 10 il əvvəl özünü göstərir

Alzheymer xəstəliyinin başlanğıc əlamətləri aşkar edildi



**Alimlərin yeni kəşfi insanlarda xəstəliyin ilkin mərhələsini aşkar etməyə imkan verəcək.**

"Medicina" məlumatına görə, Şimali Karolina İnstitutunun alimləri şəkər qrupundan molekul aşkar ediblər ki, qanda onun səviyyəsi Alzheimer xəstəliyinin başlanmasından on il əvvəl özünü göstərir.

Alzheymer xəstəliyində beyindəki neyronlar ölür və bunun beta-amiloid və tay zülallarının anormal yığılmasının nəticəsi olduğu düşünülür. Müəlliflər daha əvvəl Alzheimer xəstəliyi olan insanlarda tay və spesifik şəkərlərin, qlikanların səviyyələri arasında əlaqəni göstəriblər.

Lakin bu analizlər xəstəliyin müntəzəm skrininqi üçün istifadə edilməsi çətin olan serebrospinal maye üzərində aparılmışdır.

Alimlər yeni bir araşdırmada, qanlarında müəyyən səviyyədə qlikan olan insanların Alzheimer xəstəliyinə tutulma ehtimalının iki dəfədən çox olduğunu göstərdilər.

Bu o deməkdir ki, qanda bu molekulun səviyyəsi Alzheimer xəstəliyinin riskini qiymətləndirmək üçün və ilk simptomlardan çox əvvəl istifadə edilə bilər.

Testin dəqiqliyi təxminən 80% -dir. Nəticələr 17 il ərzində izlənilən 233 iştirakçıya əsaslanır. Alzheimer xəstəliyinə qarşı dərmanların klinik sınaqları göstərir ki, müalicəyə patoloji prosesin erkən mərhələsində başlamaq lazımdır.